QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 012 (5243) 24 yanvar 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. Qiyməti 40 qəpik

# Prezident İlham Əliyev növbəti dəfə sosial ədaləti bərpa etdi

*Dövlət başçısı İlham Əliyev məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında Fərman imzaladı*



Səh 3

9

Millət vəkili: “Məcburi köçkünlər daim Prezidentin diqqətindədir”



13

Minimum aylıq əməkhaqqının artırılması dövlət və özəl sektor işçilərinin maaşlarının artımına gətirəcək



14

Aleksandr Hovakimyan: “Metsamor AES bütün region üçün böyük təhlükə mənbəyidir”



# Azərbaycan Prezidenti İlham Əliyev şəhidlərin əziz xatirəsini yad edib




***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad edib.***

AZƏRTAC xəbər verir ki, Qara Yanvar hadisələrindən 27 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 27 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın o zamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.

Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.





Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi. Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

* * *

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldi. Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu. Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın dövlət himni səsləndi.

* * *

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

* * *

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak edirdilər.

# Prezident İlham Əliyev növbəti dəfə sosial ədaləti bərpa etdi

## *Dövlət başçısı İlham Əliyev məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında Fərman imzaladı*

***Müəyyən müddət idi ki, həm mətbuatda, həm də sosial şəbəkələrdə məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün dövlət tərəfindən verilən maddi yardımların kəsilməsi, yaxud, onların müxtəlif formada əvəzlənməsi ilə bağlı müzakirələr aparılırdı. Eyni zamanda, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün həm çörək pulu, həm də kommunal ödənişlərin həyata keçirilməsi üçün yeni mexanizmlərin bəyan edilməsi formasında manipulyasiyalar həyata keçirilirdi ki, bu da sonda heç də xoşa gəlməyən fikirlərin meydana çıxmasına yol açırdı. Hətta, bu vəziyyətdən anti-milli ünsürlər, anti-Azərbaycan dairələri də sui-istifadə edərək, ölkədə ictimai sabitliyi pozmağa hesablanmış təxribat xarakterli məlumatlar yaymaq üçün müxtəlif cəhdlər göstərirdilər.***



### Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında Fərman imzalayıb. Fərmana əsasən, dövlət büdcəsindən məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi üçün ayrılan vəsaitin ünvanlılığının təmin edilməsi və çatdırılma mexanizminin sadələşdirilməsi məqsədilə məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə 2017-ci il 1 yanvar tarixindən hər bir məcburi köçkün və onlara bərabər tutulan şəxslər üçün 36 manat məbləğində vahid aylıq müavinəti müəyyən edilib. Nazirlər Kabinetinə bu Fərmanda göstərilən vahid aylıq müavinətin şamil ediləcəyi kontingenti və müavinətin ödənilməsi qaydasını müəyyən edib Azərbaycan Prezidentinə məlumat vermək; Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək; bu fərmandan irəli gələn digər məsələləri həll etmək tapşırılıb. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və "Azərsu" Açıq Səhmdar Cəmiyyəti məcburi köçkünlərin məskunlaşdığı yerlərdə sayğacların quraşdırılmasını qısa müddətdə təmin etməlidir.



Lakin bu gün hər bir vətəndaşın, xüsusilə də, qaçqın və məcburi köçkünlərin dövlətə və Prezident İlham Əliyevə olan inam və etibarı elə bir səviyyədədir ki, bu cür təxribat xarakterli fikirlər və cəhdlər şübhəsiz təsirsiz və nəticəsiz qaldı. Çünki cəmiyyətdən, sosial institutlardan siyasi sistemə, hökumətə daxil olan impulslar heç bir halda nəzarətsiz qalmadığı kimi bu dəfə də öz layiqli cavabını aldı. Beləliklə də, dövlət bütün məsələləri nəzərə alaraq növbəti mühüm humanist addımını atdı. Bu dəfə də insanlarımızın inam və ümidi olan Prezident İlham Əliyev sosial ədaləti bərpa edən Fərman imzaladı.

Belə ki, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında Fərmana əsasən, dövlət büdcəsindən məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi üçün ayrılan vəsaitin ünvanlılığının təmin edilməsi və çatdırılma mexanizminin sadələşdirilməsi məqsədilə məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə 2017-ci il 1 yanvar tarixindən hər bir məcburi köçkün və onlara bərabər tutulan şəxslər üçün 36 manat məbləğində vahid aylıq müavinəti müəyyən edildi. Eyni zamanda, Nazirlər Kabinetinə bu fərmanda göstərilən vahid aylıq müavinətin şamil ediləcəyi kontingenti və müavinətin ödənilməsi qaydasını müəyyən edib Azərbaycan Prezidentinə məlumat vermək, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək və bu fərmandan irəli gələn digər məsələləri həll etmək tapşırıldı. Həmçinin, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və "Azərsu" Açıq Səhmdar Cəmiyyəti məcburi köçkünlərin məskunlaşdığı yerlərdə sayğacların quraşdırılmasını qısa müddətdə təmin etməlidir.

Göründüyü kimi, Prezident İlham Əliyev hər zaman olduğu kimi bu dəfə də sosial ədaləti bərpa etdi. İmkan vermədi ki, qaçqın və məcburi köçkünlərin üzərindən kimlərsə manipulyasiya etsin, rüşvət və ya korrupsiya hallarına yol versin.

Qeyd edək ki, bu günə qədər adambaşına verilən 20 manat 50 qəpik yemək xərci müavinəti pul formasında məcburi köçkünlərin kartına köçürülürdü, adambaşına 10 manat 50 qəpik məbləğində kommunal xidmətlər üçün müavinət isə Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən "Azəriqaz" İB, "Azərişıq" ASC, "Azərsu" ASC və digər müvafiq təşkilatlara köçürülürdü. Yəni, qaçqın və məcburi köçkünlərin şəxsi istifadəsində yalnız yemək xərci müavinəti olurdu.

Etiraf edək ki, elə məcburi köçkün ailələri var ki, onlar kommunal xərclər üçün köçürülən məbləğdən az istifadə edirdilər. Lakin Prezident İlham Əliyevin müvafiq Fərmanından sonra bütün müavinətlər hamısı hesablanıb pul formasında məcburi köçkün və qaçqınların kartına yüklənəcək və onlar həm yemək xərci, həm də kommunal xidmətlər üçün müavinətləri özləri alacaq və istədikləri kimi xərcləyəcəklər. Bununla da, məcburi köçkün heç bir təşkilatdan asılı olmadan vəsaiti özü paylaşdıracaq və belə olan halda kommunal xərclər üçün ayrılmış vəsaitdən az istifadə edən məcburi köçkün ailələri yerdə qalan məbləği digər ehtiyaclarının ödənilməsinə sərf edəcək ki, bu da məcburi köçkünlərin sosial təminatının daha da yaxşılaşdırılmasına xidmət edəcək. Məhz, Fərmanın da sosial ədaləti bərpaetmə xüsusiyyəti də bundadır.

Bir sözlə, bu gün Azərbaycan cəmiyyəti bir daha Prezident İlham Əliyevin humanist addımlarının nəticəsinin və dövlətimizin insan amilinə verdiyi dəyərin şahidi oldu. Hər kəs, xüsusilə də, qaçqın və məcburi köçkünlər bir daha əmin oldular ki, dövlətimiz daim onların yanındadır və insanlarımız Prezident İlham Əliyevin diqqət və qayğısı əhatəsindədir.

***"SƏS" Analitik Qrupu***

# İlham Əliyev: “Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək”

*“Əgər kimsə bunu gözləyirsə, qoy, əbəs yerə gözləməsin. Bu, olmayacaq!”*

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 23-də Müdafiə Nazirliyinin Abşeron rayonunun Pirəkəşkül qəsəbəsində “N” hərbi hissəsinin yeni inşa edilmiş hərbi şəhərciyinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.***



Dövlətimizin başçısı İlham Əliyev əvvəlcə Azərbaycan Ordusunun inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstəsi qoydu. Yeni hərbi şəhərcik 42 hektar ərazidə yerləşir. Burada tikinti işləri 2014-cü ilin mayında başlanıb, ötən ilin sonunda isə yekunlaşıb. Şəhərcikdə zabit, gizir və çavuşlar üçün 9 yaşayış binası inşa edilib. Onlardan 4-ü ailəli, 5-i isə subay hərbi qulluqçular üçündür. Ərazidə ümumilikdə 13 əsgər yataqxanası tikilib. Hərbi şəhərcikdə inzibati, xidməti və texniki binalar da inşa edilib. Ali Baş Komandan, Prezident İlham Əliyev hərbi şəhərciyin rəmzi açılışını bildirən lenti kəsdi.





Hərbi şəhərciyin qərargah binası müasir səviyyədə yaradılıb. İkimərtəbəli qərargah binasının foyesində ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdikləri diqqəti əks etdirən fotostend yaradılıb. Burada hərbi hissə növbətçisi, istirahət, qonaq və digər xidməti otaqlar var. Qərargah binasında Şərəf otağı, brifinq və akt zalları da hərbçilərin ixtiyarına verilib. Bir sözlə, burada hərbi qulluqçulara xidmətlərini yüksək səviyyədə aparmaq və istirahət etmək üçün hərtərəfli şərait yaradılıb.



Hərbi şəhərcikdə ailəli hərbi qulluqçuların yerləşməsi üçün iki və üçotaqlı mənzillərdən ibarət yaşayış binaları inşa edilib. Binalardakı mənzillər yumşaq və bərk mebellər, zəruri inventar və televizorla təmin olunub. Bütün binalara su, elektrik, telefon, internet və televiziya kabeli xətləri çəkilib.

Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. 2003-cü ildən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün milli ordumuzun dünyanın ən qüdrətli ordularının sırasına daxil olmasına imkan yaradıb.

Ərazidə xüsusi tibbi avadanlıqla təchiz edilmiş 76 çarpayılıq, ikimərtəbəli tibb məntəqəsi də tikilib. Tibb məntəqəsinin binasında Ulu Öndərin və dövlətimizin başçısının hərbi qulluqçularla görüşlərini əks etdirən fotolar sərgilənir. Burada UZİ, elektrokardioqram, rentgen, diaqnostika, lor, oftalmoloji, stomatoloji, fizioterapiya kabinetləri, laboratoriya yaradılıb. Bu kabinetlərdə müasir tibb cihazları quraşdırılıb. Bu isə tam imkan verir ki, şəxsi heyətə ixtisaslı tibbi yardım göstərilsin. Tibb məntəqəsinin palataları müasir səviyyədədir. Binada hərbi tibbi hazırlıq sinfi də yaradılıb. Bu cür hərbi şəhərciklərin inşası bir daha sübut edir ki, ordu quruculuğu sahəsində aparılan islahatlar kompleks şəkildə həyata keçirilir. Bütün bunlar isə Azərbaycan Ordusunun qüdrətini artırır, hərbi sahənin maddi-texniki bazasını möhkəmləndirir.

***Ardı Səh. 5***

# İlham Əliyev: “Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək”

*“Əgər kimsə bunu gözləyirsə, qoy, əbəs yerə gözləməsin. Bu, olmayacaq!”*





Əvvəli Səh. 4



Hərbi şəhərcikdə bütün avadanlıqla təchiz edilmiş yeməkxana inşa edilib. Dövlətimizin başçısına burada hərbi qulluqçuların istifadə etdikləri ərzaqlar barədə məlumat verildi. 1790 yerlik yeməkxanada əsgər və zabitlərin dolğun qidalanması üçün hərtərəfli şərait vardır. Burada mətbəx və təsərrüfat otaqları, eləcə də ərzaq və əşya anbarları yaradılıb. Yeməkxana kompleksində çörək istehsalı sahəsi də fəaliyyət göstərir. Bu istehsal sahəsi hərbi hissənin şəxsi heyətini çörək və şirniyyat məmulatları ilə tam təmin etmək imkanına malikdir.

Ərazidə şəxsi heyətin uzunmüddətli yerləşməsi məqsədilə yataq, məişət və xidməti sahələrdən ibarət əsgər yataqxanaları tikilib. Dövlətimizin başçısı hərbi hissənin əsgər yataqxanasına da baxdı. Burada əsgərlərin qalması və istirahəti üçün hərtərəfli şərait var. Yataqxanada ideoloji otaq, dəftərxana və digər inzibati otaqlar yaradılıb.



Prezident İlham Əliyevə hərbi hissədəki texnika barədə də məlumat verildi. Bu gün ordumuzun balansında dünyanın ən müasir silah-sursatı və hərbi texnikası var. Son illərdə dövlətimizin başçısı, Ali Baş Komandanın diqqəti sayəsində ölkəmizdə yaradılan müdafiə sənayesi kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar açır. Təsadüfi deyil ki, indi ölkəmizin silah-sursatları bir çox parametrlərinə görə dünyada ilk yerlərdən birini tutur. Bu hərbi texnika ilə Azərbaycan Ordusu Ali Baş Komandanın əmrinə əsasən istənilən an düşmənə sarsıdıcı zərbə vuraraq, torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır. Məlumat verildi ki, hərbi hissədə zirehli avtomobil və texnikaların yerləşdirilməsi üçün xüsusi yerlər inşa edilib. Hərbi texnika üçün parkın ərazisində yeni avadanlıqla təchiz edilmiş texniki nəzarət, qulluq, təmir, yanacaqdoldurma və digər məntəqələr tikilib.

Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, eləcə də hərbi qulluqçuların və onların ailə üzvlərinin asudə vaxtının səmərəli təşkili, təhsil və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi məqsədilə hərbi şəhərciyin ərazisində 528 yerlik klub inşa edilərək lazımi avadanlıqla tam təchiz olunub. Bundan başqa, ərazidə hərbi qulluqçuların peşə və ixtisas hazırlığının təşkili məqsədilə müvafiq avadanlıq və qurğularla təchiz edilmiş 2 tədris korpusu inşa olunub. Təntənəli mərasimlər, qoşunların sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də digər tədbirlərin keçirilməsi üçün 3 sıra meydanı salınıb. Şəhərcikdə qarovul xidmətinin təşkili və aparılması məqsədilə qarovul şəhərciyi və qarovul evi inşa edilib.

Hərbi şəhərcik yaradılarkən hərbi qulluqçuların idmanla məşğul olmaları diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə burada minifutbol, basketbol, voleybol, həndbol meydançaları, maneələr və qaçış zolaqlarının daxil olduğu idman-məşq qurğuları sahəsi yaradılıb.

Hərbi hissədə müasir avadanlığın quraşdırıldığı hamam-çamaşırxana-qazanxana kompleksi fəaliyyət göstərir. Burada, həmçinin bərbərxana və dərzi otaqları da var. Hərbi hissənin isti su təchizatını təmin etmək və istiliyə ehtiyacını ödəmək üçün müasir tipli qazanxanada suqızdırıcı qurğular quraşdırılıb.

Ardı Səh. 6

# İlham Əliyev: "Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək"

*"Əgər kimsə bunu gözləyirsə, qoy, əbəs yerə gözləməsin. Bu, olmayacaq!"*

Əvvəli Səh. 5

Şəhərcikdə bir buxar qazanxanası, iki transformator yarımstansiyası və biotəmizləyici su stansiyası da inşa edilib. Ərazidə həcmi 500 kubmetr olan ehtiyat və yanğın əleyhinə tədbirlər üçün nəzərdə tutulan su anbarları da yaradılıb. Hərbi şəhərcikdə yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı hərbi qulluqçularla görüşdü. Ali Baş Komandan, Prezident İlham Əliyev görüşdə çıxış etdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev öz çıxışında diqqətə çatdırdı ki, bu şəhərciyin inşa edilməsi bir daha onu göstərir ki, Azərbaycanda ordu quruculuğuna çox böyük diqqət yetirilir. Dövlət başçısı vurğuladı ki, ordu quruculuğu prosesi Azərbaycanda dövlət siyasətidir:

"Əziz hərbçilər.

İlk növbədə, sizi yeni inşa



olunmuş hərbi şəhərciyin açılışı münasibətilə təbrik etmək istəyirəm. Ərazisi 42 hektar olan bu şəhərcik ən yüksək standartlara cavab verir. Şəhərciklə tanış olarkən görürəm ki, xidmət aparmaq, yaşamaq üçün bütün şərait var. Ən müasir standartlar tətbiq olunub, xidmət şəraiti ən yüksək səviyyədədir. Hesab edirəm ki, bu hərbi şəhərcik dünya miqyasında nümunəvi hərbi şəhərcikdir. Bu şəhərciyin inşa edilməsi bir daha onu göstərir ki, Azərbaycanda ordu quruculuğuna çox böyük diqqət yetirilir. Son bir neçə il ərzində iyirmidən çox hərbi şəhərcik tikilib və əsaslı şəkildə təmir edilib. Bu gün hərbi hissələrimizin mütləq əksəriyyəti deməк olar ki, bu səviyyədədir. Ümid edirəm ki, növbəti bir-iki il ərzində yararsız vəziyyətdə bir dənə də hərbi infrastruktur olmayacaq.

Ardı Səh. 7









# İlham Əliyev: “Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək”

## *“Əgər kimsə bunu gözləyirsə, qoy, əbəs yerə gözləməsin. Bu, olmayacaq!”*

Əvvəli Səh. 6

Ordu quruculuğu prosesi Azərbaycanda dövlət siyasətidir. Hərbçilərin məişət problemləri də öz həllini tapır. Bildiyiniz kimi, iyirmi il qüsursuz xidmət göstərən hərbçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir, bu proses artıq geniş vüsət alır. Xidmət aparmaq üçün bütün lazımi tədbirlər görülür. Bir sözlə, hərbçilərimizin həm xidmət, həm də məişət şəraiti daim diqqət mərkəzindədir.

Bizim ordumuz güclü ordular sırasındadır. Son illər ərzində ordumuzun maddi-texniki təminatı böyük dərəcədə inkişaf edib. Bu gün təminat-təchizat baxımından yüksək səviyyəyə malik olan Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Biz son illər ərzində bir çox ölkələrdən ən müasir texnika, silah-sursat almışıq ki, bu texnika və silahlar bu gün bizim ordu potensialımızı gücləndirir. Bir neçə ölkədən alınmış onlarla döyüş təyyarəsi, 100-dən çox hərbi və hərbi nəqliyyat vertolyotu, hava hücumuna qarşı müxtəlif müasir sistemlər bizim müdafiə gücümüzü artırır. Müxtəlif ölkələrdən alınmış ən müasir tanklar, zirehli maşınlar, artilleriya qurğuları da düşmənin istənilən hədəfini yüksək dəqiqliklə və böyük dağıdıcı qüvvəsi ilə məhv edə bilər. Ən müasir pilotsuz uçuş aparatları, həm kəşfiyyat, həm döyüş üçün digər texnikalar alınır və bu proses bu gün də davam edir.

Bütün bu nailiyyətləri biz özümüz əldə etmişik, öz hesabımıza, güclü iqtisadiyyat hesabına. Çünki əgər güclü iqtisadiyyat olmasaydı, biz bütün bu işləri görə bilməzdik. Yaradılan bu hərbi şəhərcik bu gün bizim həm ordumuzun, həm dövlətimizin gücünü göstərir. Bu gün dünyada maliyyə-iqtisadi böhran davam edir. Ancaq buna baxmayaraq, biz bu məqsədlər üçün böyük vəsait ayırırıq və ayıracağıq. Bunu təmin edən güclü iqtisadiyyatdır. İqtisadiyyatda aparılan işlər, islahatlar bizim ordumuzu, dövlətimizi gücləndirir. Azərbaycan dünyada nadir ölkələrdəndir ki, öz hesabına yaşayır, heç kimdən asılı deyil, heç kimin maliyyə yardımına ehtiyac duymur. Öz hesabımıza yaşayırıq və ildən-ilə daha yaxşı yaşayırıq.

Bizim hərbi hissələrimizin vəziyyəti bir neçə il bundan əvvəl tam fərqli idi. Mən xüsusi göstəriş vermişdim ki, bu vəziyyət təhlil edilsin, mənə məruzə olunsun və tədbirlər görülsün. Yadımdadır, bir neçə il bundan əvvəl müxtəlif bölgələrimizdə yerləşən hərbi hissələrin fotoşəkilləri mənə təqdim edilləndə, əlbəttə ki, mənzərə çox acınacaqlı idi. Yarıdağılmış binalar, yararsız vəziyyətdə olan kazarmalar, ordumuzun ərzaq təminatı çox aşağı səviyyədə idi. Ona görə dərhal göstəriş verdim və bu sahədə köklü dəyişikliklər baş verdi. Bu gün Müdafiə Nazirliyinin rəhbərləri bütün bu işləri yüksək səviyyədə təmin edirlər. Yəni, bu gün həm təminat, həm xidmət baxımından Azərbaycan Ordusu dünyada nümunəvi ordular sırasındadır.





O ki, qaldı ordumuzun döyüş qabiliyyətinə, biz bilirdik və müntəzəm olaraq, bu istiqamətdə işlər aparılırdı. Həm nizam-intizam, həm döyüş qabiliyyəti, həm hazırlıq və bütün bu görülmüş işlər özünü lazım olan vaxtda göstərdi. Keçən ilin aprel ayında erməni silahlı təxribatının qarşısını alaraq, Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirdi. Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının bir hissəsi işğaldan azad edildi. O ərazilərdə Azərbaycan bayrağı dalğalanır. Minlərlə hektar torpaq işğaldan azad edildi. On minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir. O torpaqlarda təmizlik işləri aparılır və yaxın gələcəkdə məcburi köçkünlər o ərazilərə qayıdacaqlar.

Aprel döyüşləri bizim böyük hərbi qələbəmizdir. Uzun illər Ermənistan öz ordusu haqqında miflər yaradırdı, uydurmalar irəli sürürdü ki, guya bunların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, kimin ordusu yenilməzdir. Ermənistan öz acı məğlubiyyətini etiraf etmək istəməsə də məcburdur ki, etiraf etsin. Məhz aprel döyüşlərindən sonra Ermənistanın müdafiə naziri başda olmaqla bir çox yüksək vəzifəli hərbçilər öz vəzifələrindən kənarlaşdırıldı. Bu, aprel döyüşlərinin nəticəsi idi. Bizim əsgərlərimiz, zabitlərimiz qəhrəmanlıq göstərdilər. Biz şəhidlər də verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ancaq torpağımızı qoruduq, torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdik. Aprel döyüşləri hərbi kitablara salınmalıdır. Azərbaycan Ordusu həm hərbi peşəkarlıq, həm qəhrəmanlıq göstərmişdir.

Bütün bu uğurların təməlində düşünülmüş siyasət dayanır. Ordu quruculuğu prosesi Azərbaycanda ardıcıllıqla icra edilir. Həm təminat, təchizat, müasir texnikanın alınması, döyüş qabiliyyətinin artırılması, eyni zamanda, bizim hərbi uğurlarımız siyasi uğurlarla da tamamlanır. Biz bu gün özümüzü beynəlxalq aləmdə çox etibarlı tərəfdaş kimi təqdim etmişik. Bizim dünyadakı dostlarımızın sayı getdikcə artır. Bizim haqq işimiz barədə dünya ictimaiyyəti daha da dolğun məlumat əldə edir.

Bu gün heç kimə sirr deyil ki, bizim işimiz haqq işidir və biz öz torpağımız uğrunda vuruşuruq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı Dağlıq Qarabağda yaşayıb-yaratmışdır. Orada yerləşən tarixi, dini abidələrimiz bizim qədim mədəniyyətimizi əks etdirir. Təkcə Dağlıq Qarabağ deyil, indiki Ermənistanın ərazisi tarixi Azərbaycan torpağıdır. Əgər statistikaya nəzər salsaq görmək olar ki, XX əsrin əvvəllərində İrəvan şəhərinin əhalisinin yüzdə 70-i azərbaycanlılar idi. İndiki Ermənistanın bir çox toponimləri Azərbaycan mənşəlidir. İrəvan, Zəngəzur, Göyçə bizim tarixi torpaqlarımızdır. Bizim torpaqlarımızda erməni dövləti qurulubdur. Özü də əfsuslar olsun ki, bizim öz dəstəyimizlə. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarananda onun ilk qərarlarından biri də İrəvanı Ermənistana vermək qərarı idi.

Ardı Səh. 8

# İlham Əliyev: "Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək"

*"Əgər kimsə bunu gözləyirsə, qoy, əbəs yerə gözləməsin. Bu, olmayacaq!"*

Əvvəli Səh. 7

Yəni, bu, tarixdir, yaxın tarixdir. Bu tarix bir daha onu göstərir ki, Azərbaycan xalqı bu ərazilərdə əsrlər boyu yaşayıb və yaşamalıdır.

O ki qaldı, Dağlıq Qarabağ əhalisinə, onu da tarixçilər və bu məsələ ilə məşğul olanlar yaxşı bilirlər. Əlbəttə Azərbaycan xalqı da bilir ki, XIX əsrin 20-ci illərində Dağlıq Qarabağa İrandan və Şərqi Anadoludan kütləvi surətdə erməni əhalisi köçürülmüşdür. O məqsədlə köçürülmüşdür ki, həmin ərazidə milli və dini tərkib dəyişdirilsin və məhz buna görə XX əsrin 20-ci illərində Azərbaycan ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır. Yəni, bu, tarixdir. Tarix və ədalət bizim tərəfimizdədir. Yenə də deyirəm, bu, bizim haqq işimizdir, bu, bizim torpağımızdır və biz bu torpağa qayıtmalıyıq.

O ki qaldı, beynəlxalq hüquqa, beynəlxalq hüquq da bizim mövqeyimizi müdafiə edir. Bir çox mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı qərar və qətnamələr qəbul etmişdir. Xüsusilə BMT Təhlükəsizlik Şurası - dünyanın ən ali orqanı 4 qətnamə qəbul etmişdir və bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni işğalçı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Əgər kimsə bunu unudubsa, biz bunu yada sala bilərik. Bax, budur bu qətnamələrin əsas mahiyyəti. Ancaq Ermənistan buna məhəl qoymur və işğalçı ölkəyə heç bir təzyiq göstərilmir. BMT Təhlükəsizlik Şurası ilə yanaşı, digər beynəlxalq təşkilatlar - İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası oxşar qərar və qətnamələr qəbul etmişdir. Onlar da kağız üzərində qalıb. Bu, ədalətsizlikdir, bu, beynəlxalq normaların kobudcasına pozulması deməkdir. Ancaq yenə də işğalçı dövlətə heç bir təzyiq göstərilmir. Bu, ikili standartlar siyasətidir. Əfsuslar olsun ki, bizim ölkəmiz uzun illər ikili standartlarla üzləşir. Bəzi yerlərdə BMT Təhlükəsizlik Şurasının qətnamələri bir gün ərzində icra edilir, bizə gəldikdə isə 20 ildən çoxdur ki, bu qətnamələr kağız üzərində qalır və onları qəbul edənlər də buna biganə qalırlar. Belə olan halda Azərbaycan öz gücünü artırmalıdır və artırır.

Biz hərbi gücümüzü artırmışıq və artıracağıq. Siyasi addımlar atılacaq ki, beynəlxalq ictimaiyyət bu məsələ ilə bağlı öz mövqeyini daha da geniş ifadə etsin. Biz öz iqtisadi gücümüzü artıracağıq və bütün böhranlara baxmayaraq, ordumuza nə qədər vəsait lazımdırsa, o qədər də təmin ediləcəkdir. Bu gün də bizim büdcə xərclərimizin strukturunda hərbi xərclər birinci yerdədir. Bizim başqa ehtiyaclarımız da var. Sosial məsələlərin həlli, infrastruktur layihələrinin icrası, digər vacib məsələlər var. Onlar da öz həllini tapır. Amma, ilk növbədə, ordu quruculuğudur. İlk növbədə, ordumuzun ehtiyacları təmin edilməlidir və biz gücləndikcə, əlbəttə ki, münaqişənin həllini yaxınlaşdıracağıq.



Münaqişənin həlli isə çox sadədir. Birincisi, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Biz heç vaxt Azərbaycan ərazisində ikinci qondarma erməni dövlətinin yaranmasına icazə verməyəcəyik. Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək. Əgər kimsə bunu gözləyirsə, qoy, əbəs yerə gözləməsin. Bu, olmayacaq! Dağlıq Qarabağ Azərbaycan torpağıdır, həm tarix, həm bütün dünya birliyi bunu belə qəbul edir. Azərbaycan müstəqilliyə qovuşanda, vahid dövlət kimi BMT-yə üzv olanda Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi qəbul edilmişdir. Yəni, bu məsələnin həlli bundan ibarətdir. BMT Təhlükəsizlik Şurasının qətnamələrində göstərildiyi kimi, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Azərbaycan vətəndaşları, məcburi köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar.

O ki qaldı Dağlıq Qarabağın gələcək statusuna, bu status ancaq vahid Azərbaycan dövləti çərçivəsində mümkün ola bilər. Münaqişənin həlli bundan ibarətdir və Ermənistan rəhbərliyi bunu nə qədər tez anlasa, onlar üçün bir o qədər yaxşı olacaq. Ərazi bütövlüyünün təmin olunması, işğala son qoyulması bu münaqişənin həlli üçün əsas amillərdir. Bu məqsədlərə nail olmaq üçün bir daha demək istəyirəm, daha da güclü olmalıyıq və biz bu gün dünya miqyasında böyük təqdirlə qarşılanan güclü Azərbaycan dövləti yaradırıq. Biz öz azad gələcəyimizi qururuq, müstəqil həyatımızı qurmuşuq. Biz 25 ildir ki, müstəqil dövlətik və bir daha demək istəyirəm, heç kimdən heç bir yardım almadan, bəzi başqa ölkələr kimi heç kimin ətəyindən yapışmadan bunu əldə etmişik. Bu gün açığını deməliyik, Ermənistan müstəqil dövlət kimi dünya xəritəsində sadəcə olaraq formal mövcuddur. Ermənistan asılı ölkədir, öz gələcəyini özü müəyyən edə bilmir. İşğalçı siyasəti onları bax, bu vəziyyətə gətirib çıxarıbdır. Onların vəziyyətdən yeganə çıxış yolu qonşularla münasibətləri bərpa etməkdir. Bunun üçün isə işğala son qoyulmalıdır."

X X X

Daha sonra Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov çıxış edib:

-Möhtərəm Prezident, cənab Ali Baş Komandan.

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin xidməti döyüş fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları, Ali Baş Komandanın sərəncam və göstərişləri, o cümlədən müdafiə nazirinin əmr və direktivləri əsasında həyata keçirilib.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Ordusu bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə uğurla inkişaf etdirilir.

Ali Baş Komandanın Silahlı Qüvvələrdə bütün istiqamətlərdə həyata keçirdiyi islahatlar ordunun döyüş qabiliyyətini artırıb, nizam-intizamı və hərbi qulluqçuların sosial bazasını gücləndirib.

Yeni və müasir texnologiyaların tətbiqi ilə orduda yüksək səviyyəli idarəçilik mexanizmi yaradılıb. Birlik, birləşmə və hərbi hissələrin operativ idarə olunması məqsədilə avtomatlaşdırılmış Komanda İdarəetmə məntəqələri qurulub. Bu iş bu gün də davam etdirilir. Ordunun yeni növ silah və döyüş texnikası ilə təmin edilməsi qoşunların manevr və zərbə qabiliyyətini artırıb. Döyüş qabiliyyətini təmin edən hərbi vəzifələr tank və döyüş maşınlarının ekipajları, artilleriya və raket qurğularının heyətləri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə komplektləşdirilib. Son illər ərzində Raket və Artilleriya Qoşunlarının yeni, müasir silah və texnika, atəşi idarəetmə sistemləri ilə təminatı bu qoşun növünün zərbə gücünü kifayət qədər artıraraq, düşmənin bütün hərbi infrastruktur obyektlərini məhv etmək imkanlarını genişləndirib.

Hərbi Hava Qüvvələrinin silahlanması yüksək səviyyədədir və qoşunlar qarşıda duran vəzifələri həll etmək, o cümlədən həm havadan, həm də qurudan istənilən hücumun qarşısını almaq, düşmənin ön xəttindəki və onun müdafiəsinin dərinliyindəki mövqelərinə havadan zərbə endirmək qabiliyyətinə malikdir.

Hərbi Dəniz Qüvvələrinin infrastrukturunun inkişafında da böyük işlər görülüb. Bu qoşun növünün döyüş qabiliyyətinin artırılması üçün lazımi tədbirlər planlaşdırılıb və həyata keçirilir. Cənab Ali Baş Komandan, ordumuzun döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması məqsədilə Sizin göstərişinizə əsasən, müxtəlif qoşun növlərinin iştirakı ilə döyüş atışlı irimiqyaslı təlimlərin keçirilməsi şəxsi heyətin idarəçilik və döyüş qabiliyyətinin artırılmasına, atəşin peşəkarlıqla idarə olunmasına imkan yaradıb.

2016-cı ilin aprel ayında Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusu yüksək döyüş qabiliyyəti nümayiş etdirərək on minlərlə kvadratmetr torpaqlarımızı, o cümlədən strateji yüksəklikləri azad edib və hazırda cəbhə xəttində əməliyyat şəraitinə tam nəzarət edir.

Silahlı Qüvvələrimizin aprel döyüşlərində nümayiş etdirdiyi döyüş ruhu və qabiliyyəti orduda keçirilən islahatların yüksək göstəricisidir. Silahlı Qüvvələrimiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə tam hazırdır və buna qadirdir.

Cənab Ali Baş Komandan, 2017-ci ildə Silahlı Qüvvələrin qarşısında duran əsas vəzifələr işğal altındakı torpaqlarımızın azad edilərək ərazi bütövlüyümüzün bərpa olunması, döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılması, qoşunların operativ idarə olunması, silahlanmaya yeni qəbul edilmiş hərbi texnika və digər döyüş vasitələrinin dərindən öyrənilməsi və tətbiqi, şəxsi-heyətin mənəvi-psixoloji hazırlığının möhkəmləndirilməsindən ibarətdir.

Cənab Prezident, Sizin yüksək diqqət və qayğınız nəticəsində ordumuzun döyüş qabiliyyəti yüksəlib, hərbi qulluqçular və onların ailə üzvlərinin sosial-məişət şəraitləri yaxşılaşıb və şəxsi heyətin təminatı yüksək səviyyəyə çatdırılıb.

Ölkəmizin müxtəlif bölgələrində, xüsusilə də cəbhəboyu zonada yeni inşa edilmiş müasir hərbi şəhərciklər istifadəyə verilir, hərbi qulluqçular xidməti və daimi mənzillərlə təmin edilirlər. İcazə verin, bütün Silahlı Qüvvələrin şəxsi heyəti adından orduya göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımı bildirim. Silahlı Qüvvələr Sizin əmr və göstərişlərinizi hər an yerinə yetirməyə hazırdır.



# Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi qərb bölgəsində sakinlərlə görüşlər keçirib

***Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) Gəncə-Qazax Regional Mərkəzi yaradılıb. Təşkilatın Qərb bölgəsi üzrə fəaliyyəti Gəncə və Naftalan şəhərlərini, eləcə də Şəmkir, Tovuz, Ağstafa, Qazax, Gədəbəy, Goranboy, Daşkəsən, Göygöl və Samux rayonlarını əhatə edəcək, regional mərkəz isə Şəmkir Heydər Əliyev Mərkəzində yerləşəcək. Qeyd edək ki, İctimai Birliyin indiyə qədər Dağlıq Şirvan, Lənkəran, Quba-Xaçmaz, Aran-1, Aran-2, Şəki-Zaqatala regional mərkəzləri yaradılıb.***



Gəncə-Qazax Regional Mərkəzinin Şəmkir şəhərində keçirilən iclasında çıxış edən RİİB-in sədri Məhəmməd Abdullayev bildirib ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən 2016-cı ildə yaradılan təşkilatın başlıca məqsədi ictimai nəzarəti gücləndirmək, ölkənin ictimai-siyasi, sosial-mədəni həyatında, vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirak etmək, həyata keçirilən layihələrlə ölkədə aparılan islahatlara, o cümlədən dövlətin regionların inkişafı üzrə gördüyü tədbirlərə dəstək göstərmək, vətəndaşlarla dövlət və bələdiyyə orqanları arasında qarşılıqlı dialoqun qurulmasına nail olmaqdır. Qeyd edilib ki, İctimai Birliyə regionlardan daxil olan çoxsaylı müraciətlərin həlli istiqamətində aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq şəraitində konkret nəticələr əldə edilib.

Təqdimat tədbirində çıxış edən rayon sakinləri Heydər Əliyev Fondunun bu günədək regionda həyata keçirdiyi layihələr, inşa olunan təhsil, səhiyyə müəssisələri barədə danışıb və "Regional İnkişaf" İctimai Birliyinin fəaliyyəti çərçivəsində bu layihələrin genişlənəcəyinə inandıqlarını bildiriblər. Tədbirdə sakinləri maraqlandıran müxtəlif məsələlərin həllinə kömək göstərilməsi ilə bağlı təkliflər verilib.

M.Abdullayev RİİB-in fəaliyyətində könüllülərin rolunun əhəmiyyətindən danışaraq gəncləri İctimai Birliklə əməkdaşlığa, yaşadığı rayon və ya kənd üçün vacib olan məsələlərin həllində yaxından iştirak etməyə dəvət edib. Sakinlər və könüllülər İctimai Birliyə 150 "qaynar xətt"i, elektron poçt (info@riib.az), sosial şəbəkə hesabları (www.riib.az, www.facebook.com/regionalinkishaf, instagram.com/regionalinkishaf, twitter.com/az_riib) vasitəsilə, 0125050150 telefon və 0505000150 WhatsApp nömrələri ilə əlaqə saxlayaraq təklif və müraciətlərini, foto və videomateriallar göndərə, eləcə də gənclər təşkilata könüllü kimi qoşula (www.riib.az/site/bizeqoshul) bilərlər. RİİB nümayəndələri, həmçinin Şəmkirin Zəyəm qəsəbəsi, Sabirkənd və Düyərli kəndlərində, Tovuzun Qovlar şəhəri, Düz Cırdaxan və Cəlilli kəndlərində, Ağstafanın Aşağı Göyçəli və Dağ Kəsəmən kəndlərində, Qazaxın Aşağı Salahlı və Yuxarı Salahlı kəndlərində sakinlərlə görüşlər keçirib, onların problemləri ilə maraqlanaraq təkliflərini dinləyiblər.

## ATƏT PA-nın sessiyasında Ermənistan hərbçilərinin Azərbaycanın dövlət sərhədində təxribatları müzakirəyə çıxarılacaq



ATƏT Parlament Assambleyasının (PA) fevral ayında Vyanada keçiriləcək qış sessiyasında Ermənistan hərbçilərinin son vaxtlar Azərbaycanın dövlət sərhədində törətdiyi intensiv təxribatlar müzakirəyə çıxarılacaq. Bu barədə AZƏRTAC-a Milli Məclis sədrinin müavini, Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Bahar Muradova məlumat verib. Bahar Muradova bildirib ki, ötən ilin sonlarından başlayaraq Ermənistan Azərbaycanın dövlət sərhədində təxribatlarını genişləndirməyə başlayıb. Ermənistan silahlı qüvvələrinin kəşfiyyat qrupu bir neçə dəfə Azərbaycanın dövlət sərhədində təxribat törətməyə cəhd edib. Vitse-spiker deyib ki, Azərbaycan nümayəndə heyəti Ermənistan hərbçilərinin təxribatçı əməllərini qış sessiyası çərçivəsində müzakirəyə çıxaracaq və ATƏT PA nümayəndələrindən bu məsələyə münasibət bildirmələri istəniləcək.

Bahar Muradova qeyd edib ki, Avstriyanın ATƏT-in fəaliyyətdə olan sədri kimi münaqişələrin həllinə dair çağırışları müsbət qiymətləndirilməlidir. Bu çağırışlar real təsirlərə və qərarlara keçsə, münaqişələrin həllinə müəyyən töhfə vermiş olacaq.

## Millət vəkili: "Məcburi köçkünlər daim Prezidentin diqqətindədir"



"Cənab Prezidentin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında Fərmanı göstərdi ki, ölkə başçısı əhalinin bütün təbəqələri, ilk növbədə məcburi köçkünlər, eləcə də bu təbəqəyə bərabər tutulan şəxslərin sosial vəziyyətini daim diqqətdə saxlayır". Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.

O bildirib ki, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi, onların əvvəlki xərc və kommunal müavinətlərinn birbaşa pul vahidi ilə əvəzlənməsinə gətirib çıxarır: "Bu məcburi köçkünlərə özlərinin ailə büdcəsini daha səmərəli qurmağa, sərbəst qalan vəsaiti istədiyi kimi istifadəyə imkan verir. Eyni zamanda qeyd edim ki, bütün bunlar hər bir ailə üzvü üçün nəzərdə tutulub. Ona görə də böyük ailələr üçün bu böyük məbləğdir. Bu məcburi köçkünlərə dövlət tərəfindən yeganə maddi diqqət deyil. Biz bilirik ki, ən azı 25 min məcburi köçkün ailəsi üçün Bakıda və digər regionlarda dövlət hesabına mənzillər tikilir. Məcburi köçkün ailəsi ödənişli məktəblərdə oxuduqda onlar təhsil haqqından azad edilirlər. Həmçinin digər güzəştlər də nəzərdə tutulur. Azərbaycan dövləti bundan sonra da məcburi köçkünlərin, sosial diqqətə ehtiyacı olan bütün vətəndaşların sosial vəziyyətinin yüksəldilməsi üçün mütəmadi addımlar atacaq".

## Musa Quliyev: "Bu addımlar əhalinin sosial problemlərinin həllinə yönəlib"



"Ümumiyyətlə, Azərbaycan vətəndaşlarının sosial müdafiəsi cənab prezidentin hər zaman diqqət mərkəzində olmaqla yanaşı, qayğısı ilə əhatə olunub. Ölkə başçısı davamlı olaraq əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün addımlar atır. Bu addımlardan biri bir neçə gün öncə minimum əmək haqlarının, yaşayış minimumun artırılması ilə bağlı oldu". Bunu SİA-ya açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü, millət vəkili Musa Quliyev deyib.

O bildirib ki, dövlət başçısının imzaladığı son sərəncamlara əsasən, minimum əmək haqları 11 faiz, yaşayış minimumu isə 105 manatdan 116 manata qaldırılıb. Millət vəkili qeyd edib ki, inflyasiyanın bir rəqəmli olacağı nəzərə alındıqda sözügedən artımların inflyasiya göstəricilərindən daha yüksək olduğunu görmək mümkündür: "Bundan başqa ölkə başçısının ötən ilin oktyabr ayında imzaladığı fərman və sərəncamlara əsasən 11 istiqamət üzrə "Strateji Yol Xəritələri" icraya yönəldilib ki, bu da post-neft dövrü olan Azərbaycan iqtisadiyyatın güclənməsinə, əhalinin daha keyfiyyətli xidmət alması, eləcə də bir sıra sosial problemlərinin həllinə yönələn addımlardır. Ötən ilin sonunda ölkə başçısı Azərbaycanda ilk sosial evlərin təməlqoyma mərasimində iştirak etdi və bu il içərisində 2 min mənzil tikilərək aztəminatlı ailələrə veriləcək".

Dövlət başçısının bir neçə gün öncə pensiyaların sığorta hissələrinin artırılması ilə bağlı sərəncamı haqqında da fikirlərini bildirən M.Quliyev söyləyib ki, bundan sonrakı dövrlərdə də istər əmək haqlarının, istər pensiya və müavinətlərin artırılmasının şahidi olacağıq: "Yeni iş yerlərinin açılması da Azərbaycan Prezidentinin prioritet istiqamətlərindən biridir və bu il 100 mindən çox yeni iş yerlərinin açılması nəzərdə tutulub ki, onların da əksəriyyəti regionlarda aqrar sektora aiddir. Bu, Azərbaycan xalqının həm məşğulluğunu təmin edəcək, həm əhalinin gəlir əldə etmək imkanlarını genişləndirəcək ki, bu da onların sosial müdafiəsini təmin etmiş olacaq. Bütövlükdə götürdükdə 2 il bundan öncə Ölkə başçısının un və un məmulatlarının əlavə dəyər vergisindən azad edilməsi ilə bağlı sərəncamı oldu, il yarım bundan öncə isə Dövlət başçısının təşəbbüsü ilə qanunvericilikdə dəyişiklik edilərək dərman vasitələrinin qiymətləri tənzimləndi. Bununla ölkəmizdə dərmanların qiymətlərin xeyli dərəcədə aşağı düşməsinə səbəb oldu. Bundan əlavə, cənab Prezidentin göstərişi ilə Azərbaycanda daxili istehsalın güclənməsi istiqamətində mühüm addımlar atılır ki, bu da əhalinin ərzaq və gündəlik tələbat malları ilə daxili istehsal hesabına təmin olunmasını həyata keçirəcək. Bu eyni zamanda iş yerlərinin açılmasına, keyfiyyətli və ucuz məhsulların əldə olunmasına gətirib çıxaracaq".

"Ümumilikdə dünyada baş verən maliyyə iqtisadi böhrana, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq Azərbaycanın builki büdcəsinin 40 faizi sosial xərclərə ayrılması və digər tədbirlər də onu göstərir ki, Azərbaycan Prezidentinin daxili siyasətində sosial müdafiə əhalinin sosial rifah halının gücləndirilməsində prioritet istiqamətdir və bu siyasət bundan sonra da davam edəcək"- deyə, millət vəkili əlavə edib.

# "İnformasiya yaradıcılığı: standartlar və yeni yanaşmalar" dərsliyi zamanın çağırışından yaranıb

***Bu gün dünya xəbərlə nəfəs alır. Hətta ucqar dağ kəndinin sakini həyatını xəbərsiz təsəvvür etmir. Xəbər sərhəd tanımır və dünyanın bu başından o biri başına göz qırpımında çatır. Belə bir vaxtda xəbər istehsalçıları olan jurnalistlərin, informasiya agentliklərinin üzərinə xüsusi məsuliyyət düşür. İnformasiya texnologiyasının fantastik inkişafı və qloballaşma fonunda xəbər yaradıcılığının meyarları dəyişir, standartları saf-çürük edilir. AZƏRTAC-ın baş direktoru, jurnalist-publisist Aslan Aslanovun "İnformasiya yaradıcılığı: standartlar və yeni yanaşmalar" dərsliyi zamanın məhz bu çağırışlarından qaynaqlanır.***

Amma mən bu dərsliyin özündən əvvəl dərslik kimi ciddi tipoloji tələblərə cavab verə biləcək bir kitabı ortaya qoymağa kimin mənəvi səlahiyyəti olduğuna diqqət çəkmək istərdim. Dərslik öz tipoloji xarakterinə görə başqa kitablardan çox fərqlənir. Dərslik "mənə elə gəlir ki..." ehtimalını qəbul etmir, dərslik "iki vur iki, bərabərdir dördə" kimi dəqiq və elmi-nəzəri, praktik aləmdə qəbul olunmuş postulatlar üzərində və bir də onun müəllifinin bu postulatlar səviyyəsində özünün dəqiq yanaşmaları kontekstində hazırlanıb. Bu gün - dünyanın hər an dəyişdiyi bizim zəmanədə sürətlə qloballaşan dünyaya dinamik reaksiya ilə dərslik yazmaq çox çətindir, amma çox da vacibdir. Jurnalistika da, yuxarıda dediyim kimi, dəyişən dünyaya, informasiya təqdimatının yeni formatlarına məhkum olan fəaliyyət sahələrindəndir. Ona görə də Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin bu tipli dərsliklərə çox ehtiyacı var. Bunu universitetin rəhbərliyi də bilir və elə buna görə də rektor, akademik Abel Məhərrəmov Aslan Aslanovun dərsliyinin əlyazmasını bircə axşama oxuyub ona təcili dərslik qrifi verilməsi ilə əlaqədar əmr imzaladı. Məsələ ondadır ki, bu dərslik ən məhsuldar informasiya istehsalçılarının - xəbər agentliklərinin peşəkar təcrübəsi əsasında jurnalistikanın başlıca məhsulu olan informasiyanın polifonik istiqamətlərdən necə hazırlanmasını ortaya qoyur və qloballaşan dünyada informasiya yaradıcılığına yeni yanaşmanın elmi, praktik mənzərəsini təqdim edir. Bundan əvvəl jurnalistika yaradıcılığı barədə 10-a yaxın monoqrafiyanın, bir dərs vəsaitinin müəllifi olan Aslan Aslanov həm peşəkar jurnalist, həm informasiya sahəsində çox ciddi beynəlxalq təşkilatların üzvü və həm də rəhbəri, AZƏRTAC-da topladığı böyük təcrübə sahibi kimi uzun bir yol keçib. İnformasiya yaradıcılığına dayanıqlı ənənə və müasir çağırışlar istiqamətində yanaşan müəllif bu sahədə bir sıra fundamental problemləri araşdırıb. Kitab tarix və müasirlik istiqamətini əsas kompozisiya xətti kimi qəbul edib.




Əvvəlcə dünyada informasiya yayımının tarixini araşdıran müəllif bostonlu tacir Samuel Gilbertin öz dükanında açdığı qiraətxanadan başlamış ilk xəbər agentlikləri olan "Havas Bürosu" (Fransa), "Reuters" (Böyük Britaniya), "Stefani" (İtaliya), "Volf" (Almaniya) və "Associated Press"in (ABŞ) yaranmasınadək keçilən yola qısa nəzər salır. Müasir dövrümüzdə informasiyanın roluna dair baxışlarını tanınmış jurnalistika nəzəriyyəçilərinin, habelə kulturoloq, sosioloq, psixoloq və filosofların tədqiqatları ilə əsaslandırır. Bununla da, ilk növbədə, gələcəyin jurnalisti və xəbər istehsalçısı olacaq ali məktəb tələbələrinə düşünmək üçün mövzu və zəngin həyat materialı verir.

Dörd fəsildən ibarət dərslik Azərbaycanda fəaliyyət göstərən informasiya agentlikləri barədə məlumatla başlayır. Təbii olaraq, Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) daha çox yer ayrılır. Belə ki, ölkəmizdə xəbər agentliyinin yaranması və təşəkkülünün tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövründə təsis olunmuş Azərbaycan Teleqraf Agentliyi ilə bağlıdır. Dərslikdə Azərbaycan Teleqraf Agentliyinin varisi olan AZƏRTAC-ın keçdiyi tarixi yol, inkişaf mərhələləri sənədlərin dili ilə açılıb göstərilir. Həmçinin Azərbaycanın digər populyar informasiya agentlikləri barədə məlumatlar ölkəmizin müasir xəbər məkanı haqqında aydın təsəvvür yaradır.

Hazırda informasiyanın işlənməsi və yayılması texnologiyası çox da uzaq olmayan keçmişdən köklü şəkildə fərqlənir. İnternet, sosial şəbəkələr xəbər məkanına hədsiz operativlik və dinamika gətirməklə yanaşı, ənənəvi informasiya agentliklərini güclü rəqabətlə üzləşdirir. Onlar həyat qabiliyyətlərini təmin etmək üçün işi necə qurmalı, zamanın tələbi ilə ayaqlaşmaq üçün necə işləməlidirlər? İnformasiya işi sahəsində uzun illik təcrübəyə malik, beynəlxalq media forumlarının daimi iştirakçısı olan Aslan Aslanov təqdim etdiyi dərslikdə müasir informasiyanın işlənmə və yayılma problemlərinə xüsusi yer ayırır. Bu fəsildə cəmiyyətin həyatında informasiyanın və informasiya mübadiləsinin əhəmiyyəti, informasiyaya tələbatın ödənilməsində xəbər agentliklərinin rolu təhlil olunur, mövcud durumla bağlı maraqlı fikir və mülahizələr irəli sürülür. Müəllif hesab edir ki, problem bəzi hallarda informasiyanın yoxlanılmamış, ilk mənbədən dəqiqləşdirilməmiş faktlar əsasında və ya qərəzli mövqedən sifarişlə yazılması ilə bağlıdır.

İnformasiya resursları və mənbələrinin mövcud bolluğu və kəskin rəqabət şəraitində dünya mediası auditoriya toplamaq, diqqəti cəlb etmək üçün nə kimi yeni metod və üsullardan istifadə edir? Dərslikdə ABŞ-ın "Washington Post", Böyük Britaniyanın "Times", "İndependent" qəzetlərinin və digər Qərb mediasının bu sahədə təcrübəsi, eyni zamanda, auditoriyanı öyrənməyin yolları barədə maraqlı faktlar, bununla bağlı müxtəlif ölkələrdə aparılmış tədqiqatların nəticələri haqqında məlumatlar təqdim olunur.

Qloballaşan dünyada sərhədsiz informasiya məkanı formalaşıb. İnformasiyanın əldə edilməsi mənbələrinin coğrafiyası hədsiz dərəcədə genişlənib, xəbərin yayılması üçün hərtərəfli infrastruktur formalaşıb. Xəbərin məzmunu və forması ilə yanaşı, operativliyi və etibarlılığı əsas meyara çevrilib. Bütün bunlar informasiyanın istehsalçıları və istehlakçıları arasında yeni münasibətlərin yaranmasına gətirib çıxarır. İlk mənbə ilə işləmək bacarığı, informasiyanın alınması, işlənməsi, dəqiqləşdirilməsi, operativ şəkildə yayılması ön plana keçir. Dərslikdə bu amillərin hər biri Azərbaycanın informasiya agentliklərinin fəaliyyəti və KİV-lə bağlı elmi-nəzəri tədqiqatlar kontekstində araşdırılır. Müəllif, eyni zamanda, informasiya mənbələrinə, xəbərin əldə edilməsi və yayılması yollarına dair təcrübəsini, şəxsi fikir və mülahizələrini bölüşür.

Son vaxtlar informasiya işində ənənə və müasirlik ən çox müzakirə olunan, bəzən mübahisə doğuran məsələlər sırasındadır. Həyatımızda hər şey dəyişir və bu, informasiya işində də yeni yanaşmaları qaçılmaz edir. "Bütün dəyərlərin yenidən qiymətləndirilməsi zamanın hökmüdür" - F.Nitsşenin bu fikrini sitat gətirən dərslik müəllifi informasiyanın dəyişməyən, əslində zaman keçdikcə daha çox qiymətə minən dəyərləri barədə söhbət açır. Bu sırada xəbər istehsalının "qızıl modeli" adlandırılan "çevrilmiş piramida" formulu, obyektivlik amili xüsusi qeyd olunur. Eyni zamanda, mediada obyektivlik məsələsinə münasibətdə iki müxtəlif qütb qarşı-qarşıya qoyulur, bununla bağlı mövcud elmi mübahisələrdən doğan qənaət diqqətə çatdırılır.

Dərsliyin bu fəslində əsas informasiya janrları sayılan xəbər, müsahibə, söhbət, reportaj və hesabatın səciyyəvi cəhətlərindən, janr seçimini şərtləndirən amillərdən, bu məsələyə jurnalistin fərdi yanaşmasından bəhs olunur. Bununla yanaşı, analitik, bədii-publisistik, satirik janrlar barədə maraqlı elmi-nəzəri və praktik müddəalar irəli sürülür ki, bununla da təkcə jurnalistikanın informasiya siyasətinə deyil, bütövlükdə, janr nəzəriyyəsinə yeni baxış ifadə olunur.

Ənənə və müasirliyin yalnız vəhdətdə götürüldüyü təqdirdə uğur gətirə biləcəyinə əmin olan müəllif sosial şəbəkəyə, yaxud blogerlərə qısqanclıqla yanaşmır, onları rəqib hesab etmir. Youtube, Facebook, Tvitter və digər sosial şəbəkələrdə ildırım sürəti ilə yayılan xəbəri operativliyin zirvəsi adlandırır. Onun fikrincə, informasiya agentliklərinin operativlik baxımından sosial şəbəkəyə uduzması faciə hesab olunmamalıdır. Onlar xəbərin dəqiqliyi və səhihliyi, xəbərin təhlili ilə istehlakçılarının etimadını daha çox qazana bilirlər.

Dərslikdə informasiya agentlikləri və innovasiyalar, bununla bağlı müasir media nəzəri məktəbinin tanınmış mütəxəssislərinin fikirləri, xəbər çatdırmağın innovativ metodları olan multimedia və infoqrafiyanın üstünlükləri, ənənəvi medianın onlayn mediaya transformasiyası, zəmanəmizin xəbər meyarları, yeni texnologiyalar və fərdi brendlər, gələcəyin perspektivli jurnalist peşələri və jurnalistikanın digər aktual problemləri əksini tapıb. Maraqlı cəhət həm də orasındadır ki, informasiya istehsalının və ötürülməsinin innovativ metodlarının tətbiqi müəllifin rəhbərlik etdiyi agentliyin təcrübəsinə, bir az da qürurla desəm, yeni medianın Azərbaycan təcrübəsinə istinadla araşdırılır.

Bəlkə də ilk dəfədir ki, bu dərslikdə informasiya agentliklərinin bütün beynəlxalq və regional təşkilatları haqqında məlumat bazası toplu şəkildə təqdim edilir. Müvafiq bölmədə Dünya Xəbər Agentlikləri Konqresi, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatı (OANA), Avropa Xəbər Agentlikləri Alyansı (EANA), Türkdilli Xəbər Agentlikləri Birliyi (TKA), Ərəb Xəbər Agentlikləri Federasiyası (FANA), Beynəlxalq İslam Xəbərlər Agentliyi (IINA) və digər media qurumlarının tarixi, strukturu, AZƏRTAC-ın bu təşkilatlarda təmsilçiliyi ilə tanış olmaq mümkündür. Burada 2016-cı il noyabrın 16-17-də Heydər Əliyev Fondunun və AZƏRTAC-ın birgə təşkilatçılığı ilə Bakıda keçirilən Dünya Xəbər Agentliklərinin V Konqresinin və OANA-ın XVI Baş Assambleyasının işinə dair zəngin material toplanıb. Yeri gəlmişkən, bir vaxt bu beynəlxalq qurumlara sadəcə üzv olmağa can atan AZƏRTAC indi onlara sədrlik edir. Qürurla deyə bilərəm ki, dərsliyin müəllifi Aslan Aslanov həm Dünya Xəbər Agentlikləri Konqresinin, həm də OANA-nın prezidentidir.

"İnformasiya yaradıcılığı: standartlar və yeni yanaşmalar" dərsliyi Bakı Dövlət Universiteti jurnalistika fakültəsi Elmi Şurasının, universitetin Elmi-Metodik Şurasının və Nəşriyyat Şurasının qərarları ilə nəşr olunub. Əsərin elmi redaktoru bu sətirlərin müəllifi, rəyçiləri AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Nizami Cəfərov, filologiya üzrə fəlsəfə doktoru, professor Həmid Vəliyev, redaktoru filologiya üzrə fəlsəfə doktoru Elşən Şahbalayevdir. Onu da deyim ki, biz bəzən dərslik deyəndə yalnız tələbələri nəzərdə tuturuq. Lakin elə dərslik var ki, ondan hər kəsə pay düşür. "İnformasiya yaradıcılığı: standartlar və yeni yanaşmalar" bu gün bəlkə daha çox praktik jurnalistlərin karına gələcək. Çünki dərslik ali məktəb tələbələri ilə yanaşı, aspirantlar, tarixçilər, politoloqlar və praktik jurnalistlər üçün də zəngin məlumat mənbəyidir.

***Cahangir Məmmədli***
***filologiya elmləri doktoru, professor***

# Binəqədi yanğınında təqsirləndirilənlər son söz deyiblər



Dünən Bakı Ağır Cinayətlər Məhkəməsində Binəqədi rayonunda yaşayış binasında baş verən yanğınla bağlı təqsirləndirilən şəxslərin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib. SİA-nın verdiyi məlumata görə, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən Ələkbər Əsgərov son söz deyib. O, təqsirsiz olduğunu bildirərək, məhkəmədən bəraət istəyib. Daha sonra digər təqsirləndirilən, Binəqədi rayon Mənzil-kommunal təsərrüfatı birliyinin rəisi işləmiş rayon İcra Hakimiyyətinin təsərrüfat şöbəsinin müdiri Ədalət Rəcov da günahsız olduğunu bildirib. Binəqədi rayonu, 72 saylı mənzil-kommunal istismar sahəsinin rəisi, təqsirləndirilən Nizami Orucov isə binanın təmizlik işinə nəzarət etdiyini deyib. "Poliuretan" məmulatını istehsal edən "Qlobal Stone" və "Global Constuction" MMC təsisçisi Miryusif Mahmudov da çıxışında günahsız olduğunu bildirib. M.Mahmudov qeyd edib ki, "Qlobal Stone" və "Global Construction" MMC-nin gördüyü işlər standartlara uyğun olub.

Təqsirləndirilən Akif Əlibəyov da çıxışı zamanı günahsız olduğunu dilə gətirib. Ağacavad Məmmədov isə bildirib ki, əməlində cinayət tərkibi yoxdur. Digər təqsirləndirilən Uğur Beşirov isə son söz üçün məhkəmədən vaxt istəyib. Buna görə də proses yanvarın 26-sı saat 16:00-dək təxirə salınıb. Qeyd edək ki, prokuror Miryusif Mahmudovun 10 il, Ələkbər Əsgərovun 7 il, Uğur Beşirovun 8 il, Qəzənfər Novruzovun 7 il, Ədalət Rəcəbovun 7 il, Nizami Orucovun 5 il, Ağacavad Məmmədovun 5 il və Akif Əlibəyovun 5 il azadlıqdan məhrum edilməsini istəyib.

Xatırladaq ki, ötən il mayın 19-da paytaxtın Binəqədi rayonu ərazisində çoxmərtəbəli yaşayış binasında ağır nəticələrə səbəb olmuş yanğınla bağlı binaların üzlənməsində istifadə olunan "poliuretan" məmulatını istehsal edən "Qlobal Stone" və "Global Constuction" MMC təsisçisi Miryusif Mahmudov, "Qlobal Stone" MMC-nin baş direktoru Uğur Beşirov, "Global Construction" MMC-nin sədr müavini Ələkbər Əsgərov, 2012-2013-cü illərdə Binəqədi rayon mənzil-kommunal təsərrüfat birliyinin rəisi işləmiş rayon icra hakimiyyətinin təsərrüfat şöbəsinin müdiri Ədalət Rəcəbov, Binəqədi rayonu, 72 saylı mənzil-kommunal istismar sahəsinin rəisi Nizami Orucov və binanın poliuretan materialla üzlənməsi işlərinə nəzarət funksiyalarını həyata keçirməli olan, 2012-2013-cü illərdə Binəqədi rayon İcra Hakimiyyəti başçısının birinci müavini işləmiş Qəzənfər Novruzov, Cinayət Məcəlləsinin 225.2-ci (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olan yanğın təhlükəsizliyi qaydalarını pozma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarları həbs qətimkan tədbiri seçilib.

Bundan başqa, cinayət işinə "Dərnəgül Boru" Zavodunun laboratoriya rəhbəri Ağacavad Məmmədov və Səhiyyə Nazirliyi yanında Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru Akif Əlibəyov da cəlb edilib. Onlar barəsində həbs qətimkan tədbiri seçilməyib. Yanğın nəticəsində 15 nəfər ölüb, 50 nəfər xəsarət alıb.

# "Məktəblinin Dostu" 317 nömrəli məktəbdə



Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) birgə həyata keçirdiyi "Məktəblinin Dostu" layihəsi fəaliyyətini davam etdirir. Layihə çərçivəsində Bakı şəhərindəki 30 məktəbdə "Nə? Harada? Nə zaman?" intellektual oyunları təşkil olunur. Oyunların keçirilməsində məqsəd şagirdlərin intellektual inkişafını artırmaqdır. SİA-nın məlumatına görə, layihənin davamı olaraq Bakı şəhəri Suraxanı rayonu 317 saylı tam orta məktəbdə "Nə? Harada? Nə zaman?" intellektual oyunu təşkil olunub. Yarışda 7-9 cu sinif şagirdləri iştirak edib. Öncə Azərbaycanın Dövlət Himni səsləndirilib. Sonra məktəbin direktoru Əliqismət Səfərov yarış iştirakçılarını salamlayıb. O, komandalara uğurlar arzulayıb. Hər biri 6 nəfərdən ibarət olmaqla 12 komanda 24 suala düzgün cavab vermək uğrunda yarışıblar. Oyunda 1-ci yeri 13 düzgün cavabla "Xəmsə", 2-ci yeri 12 düzgün cavabla "Qarabağ", 3-cü yeri isə hər biri 11 düzgün cavabla "Sarı gəlin" və "Koroğlu" komandaları bölüşüblər. İlk üç yerin sahiblərinə sertifikatlar təqdim olunub. Qalib komanda final oyununda 30 məktəbin qalib komandaları ilə çempion adı qazanmaq üçün yarışacaq.



Qeyd edək ki, 317 nömrəli məktəbdə mütəmadi olaraq şagirdlərin asudə vaxtlarını maraqlı və səmərəli keçirmək üçün "Məktəblinin Dostlar"ı tərəfindən müxtəlif motivasiya xarakterli oyun və yarışların təşkil olunması nəzərdə tutulur. Nəzərinizə çatdıraq ki, "Məktəblinin Dostu" layihəsinin gələcəkdə əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur. Hər məktəbdə şagird sayına uyğun olaraq, minimum 3 nəfər olmaqla Məktəblinin Dostu fəaliyyət göstərir. Layihənin əsas məqsədi müəllim və şagirdlər üçün təhlükəsiz mühit yaratmaq, fövqəladə hal baş verdikdə ilkin tibbi və psixoloji yardım göstərmək, mütəmadi olaraq şagird, valideyn, təlim-tərbiyə müəssisələrinin kollektivi ilə maarifləndirmə və diaqnostik işlər aparmaq və digər bu kimi vəzifələri yerinə yetirməkdən ibarətdir. "Məktəblinin Dostu" seçilmiş şəxslər hər bir yaş mərhələsində uşaqların hərtərəfli şəxsi keyfiyyətlərinin və intellektual inkişafının təmin edilməsi, onlarda özünütərbiyə və özünüinkişaf bacarığının formalaşdırılmasında iştirak edirlər.

# Ermənilər bir daha heç zaman beynəlxalq ictimaiyyəti aldada bilməyəcəklər

## *Mübariz Əhmədoğlu: "Lavrovun dili ilə Rusiya ilk dəfə olaraq "işğal olunmuş ərazilər" terminini işlətdi"*

***Azərbaycanlı jurnalistin Rusiyanın xarici işlər naziri Sergey Lavrova verdiyi sual və bu suala cavabı ətrafında bir neçə gündür ki, müzakirələr gedir.***

Əslində nə baş verib? Jurnalistin "Azərbaycan tərəfinin antiterror əməliyyatlarına başlayacağı və işğal olunmuş əraziləri işğalçılardan təmizləyəcəyi təqdirdə, Moskva necə hərəkət edəcək: buna göz yumacaq, yoxsa Azərbaycanın daxili işlərinə qarışacaq?" sualına cavabında Lavrov nə deyib və məsələnin əsl mahiyyəti nədən ibarətdir? Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu bildirib ki, Sergey Lavrovun bəyanatı Dağlıq Qarabağ tənzimlənməsində ermənilərin mövqeyinə ən ciddi zərbələrdən biridir: "Sadəcə, ermənilər emosional ritorikaya söykənərək, belə düşünürlər ki, guya Lavrov Azərbaycan jurnalistinin sualına sərt cavab verib və Azərbaycan jurnalistinin üstündən tankla keçib. Reallıqda isə ekspertlərindən fərqli olaraq, rəsmi Yerevan Lavrovun bəyanatına qarşı etiraz edir. Ermənistan xarici işlər naziri E.Nalbandyan dərhal Moskvaya qaçdı, Lavrovla görüşdü. Ermənistan Xarici İşlər Nazirliyinin yaydığı foto-şəklin tərtibatından bəlli olur ki, əvvəlcədən planlaşdırılmamış görüş qeyri-rəsmi ərazidə keçirilib. Nalbandyanın müavini Şavarş Koçaryan da Lavrovun bəyanatını




rəsmi mövqe hesab etmir". Rəsmi Yerevan başa düşüb ki, Lavrovun dilindən "işğal olunmuş ərazilər" termini səslənibsə, Rusiya bunu gec-tez Ermənistana qarşı ciddi şəkildə istifadə edəcəkdir. Çünki əgər ərazilər işğal olunubsa, deməli, işğalçı var. İşğalçı varsa, deməli, BMT Təhlükəsizlik Şurasının yeni qətnaməsi ilə cəzalandırılmalıdır. Rəsmi Yerevanı perspektiv ciddi narahat edir".

M.Əhmədoğlu Sergey Lavrovun "Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın daxili işi deyil" fikrinə də münasibət bildirib: "Qaldı ki, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın daxili işi olmamasına, burada da Lavrov həqiqətdən uzaq bir şey demir. 1992-ci ildə ATƏT-in Minsk Qrupu yaradılarkən və onun tərkibi formalaşdırılarkən, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan daxili, yoxsa beynəlxalq münaqişə olması ilə bağlı Azərbaycanda qızğın müzakirələr başladı, uzun müddət davam etdi. Hətta bəzi erməni ekspertləri də Azərbaycanın daxilində gedən bu diskussiyalara münasibət bildirdi. ATƏT-in (o zamankı ATƏM) Budapeşt sammiti (1994-cü il) zamanı artıq ATƏT-in Minsk Qrupunun fəaliyyəti, Dağlıq Qarabağ münaqişəsinin tərəfləri və sülhməramlıların tərkibi ilə bağlı qərarlar qəbul edildi. Bütün bunlar, artıq bir daha təsdiq etdi ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi beynəlxalq məsələyə çevrilib. Burda Azərbaycan üçün ciddi zərərli bir şey yoxdur. Çünki ermənilər sovet dönəmində Dağlıq Qarabağla bağlı qəbul olunan qərarları qəbul etmirlər. Bu qərarları təkcə bir qrupun- ya Sovet İttifaqının Kommunist Partiyasının və yaxud Stalinin qəbul etdiyi qərar hesab edirlər. Dağlıq Qarabağ ermənilərinin 1923-cü ildə Azərbaycanın tərkibində qalmağa səs verdiklərini unutdurmağa çalışırlar. İndi beynəlxalq ictimaiyyət, BMT, ATƏT-in Minsk Qrupu, Avropa İttifaqı və Avropa Şurası Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə məşğuldur. Maraqlısı da budur ki, bütün bu təşkilatların mövqelərində Dağlıq Qarabağa müstəqilliyin verilməsi nəzərdə tutulmayıb. Dağlıq Qarabağ münaqişəsinə dair olan bütün sənədlərdə iki istisna var:

1. Dağlıq Qarabağ münaqişəsi regionunda üçüncü dövlət olmayacaq.

2. Dağlıq Qarabağ azərbaycanlıları olmadan Dağlıq Qarabağın statusu müəyyənləşdirilməyəcək.

Beynəlxalq ictimaiyyətin iştirakı ilə Dağlıq Qarabağ Azərbaycana qaytarılır. Bu, erməni xəstəliyinə qarşı ən yaxşı vasitələrdən biridir.

**"Bəli, Dağlıq Qarabağ münaqişəsi təkcə Azərbaycanın daxili məsələsi deyil, bu BMT, ATƏT MQ, Aİ, AŞ və s. qurumların məşğul olduğu məsələdir"**

M.Əhmədoğlu onu da əlavə edib ki, ermənilər bir daha heç zaman beynəlxalq ictimaiyyəti aldada bilməyəcək, Azərbaycana qarşı ərazi iddiası qaldıra bilməyəcəklər: "Görünür, erməni ekspertləri siyasətin, o cümlədən, Dağlıq Qarabağ münaqişəsinin tarixini özlərinin siyasi fəaliyyətə başladığı dövrdən hesablayırlar. Ona görə də, özlərindən əvvəlki dövrlərdə baş verənlər onlar üçün yoxdur. Bəli, Dağlıq Qarabağ münaqişəsi təkcə Azərbaycanın daxili məsələsi deyil, bu, BMT, ATƏT MQ, Aİ, AŞ və s. qurumların məşğul olduğu məsələdir. S.Lavrovun bəyanatında Rusiya-İsrail vətəndaşı Aleksandr Lapşinlə bağlı məsələlər də ermənilərin maraqlarına nəzərdə tutulan məsələ deyil. Azərbaycanın Belarusla arasındakı münasibətlərindən bəzi Rusiya rəsmilərinin narahatçılığı var. İndi görünür, bəzi Rusiya rəsmiləri, məhz Lapşin məsələsindən istifadə edərək, Belarusla Azərbaycanın arasında narazılıq yaratmağa cəhd edirlər. Ona görə Lapşinlə bağlı məsələyə Ermənistan mövqeyindən yanaşmaq düzgün deyil. Həm də Rusiya, doğrudan da, öz vətəndaşını müdafiə etmək niyyətində idisə Dilqəm Əsgərovun qismində bu məsələni həll edə bilərdi. Ermənilər Rusiya vətəndaşı olan Dilqəm Əsgərovu həbs ediblər və Rusiya rəsmilərinin bir neçə müraciətini qulaqardına vurublar. İndi belə olan təqdirdə, Ermənistanın Rusiyadan, Rusiya vətəndaşlığına istinad edərək, Lapşinlə bağlı məsələ qaldırmaları yalnız erməni məntiqi ilə izah oluna bilər".

**Samir Feyruzov**

# Suraxanıda 20 Yanvar faciəsi şəhidlərinin xatirəsi anılıb





***Suraxanı rayon icra hakimiyyətinin və YAP Suraxanı rayon təşkilatının birgə təşkilatçılığı ilə rayonun Heydər Əliyev Mərkəzində ümumrayon anım tədbiri keçirilib.***

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başlanıb. Sonra 20 Yanvar faciəsinin şəhidləri və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov qeyd edib ki, keçmiş sovet dövlətinin hərb maşınının 1990-cı il yanvarın 20-də Azərbaycan xalqına qarşı həyata keçirdiyi qanlı terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq xatırlanır.

Rayon rəhbəri çıxışında onu da qeyd edib ki, dəhşətli faciəyə kəskin etiraz olaraq 1990-cı il yanvarın 21-də ailə üzvləri ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev hadisəyə operativ və düzgün qiymət verən ilk vətənpərvər Lider oldu: "Ümummilli Lider Heydər Əliyev bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, mənsub olduğu xalqın faciəsinə məsuliyyət daşıyanları Kremlin bir addımlığında, həm də bütün dünyanın gözü qarşısında ittiham etdi. Təsadüfi deyil ki, hadisəyə ilk hüquqi-siyasi qiymət də 1991-ci ilin noyabr ayında Ulu Öndərin Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtda verildi".

İ.Abbasov qeyd edib ki, bu gün 20 Yanvar faciəsinin iştirakçıları və şəhid ailələri dövlətin daim diqqət mərkəzindədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şəhidlərin adının uca tutulmasına, onların ailələrinin sosial məsələlərinin həllinə xüsusi qayğı göstərir.

Tədbirdə Milli Məclisin deputatı Sevinc Fətəliyeva, YAP Suraxanı rayon təşkilatını sədri Vüqar Seyidov, "Şəhidlər" kitabının müəllifi Rafiq Səməndər, "Səhər" qəzetinin keçmiş redaktoru, "20 Yanvar: Güllələnmiş qəzet" kitabının müəllifi Məzahir Süleymanzadə, jurnalist, tədqiqatçı Zemfira Məhərrəmli, "Qadın və İnkişaf" Mərkəzinin direktoru, 20 Yanvar şəhidinin həyat yoldaşı Şövkət Xanməmmədova, 20 Yanvar Cəmiyyətinin Suraxanı rayon şöbəsinin sədri Bəxtiyar Ağayev çıxış edib.

Tədbir boyu zaldakı ekranlarda bəşər tarixinin dəhşətli cinayət hadisəsi olan "20 Yanvar" faciəsi haqqında video-çarx nümayiş olunub. Tədbirdən sonra 20 Yanvar Cəmiyyətinin Suraxanı rayon şöbəsinin üzvlərinə ərzaq yardımı göstərilib.

**ZÜMRÜD**

# "Bu siyasətin alternativi yoxdur"

*YAP Xızı rayon təşkilatı Şurabad qəsəbə ilk partiya təşkilatında hesabat - seçki yığıncagı keçirilib*



***Dünən YAP Xızı rayon təşkilatı Şurabad qəsəbə ilk partiya təşkilatında hesabat - seçki yığıncagı keçirilib. Şurabad qəsəbə ilk partiya təşkilatının sədri Z.Zeynallı hesabat məruzəsi ilə çıxış edərək, hesabat dövründə görülən işlərdən, partiya üzvlərinin rayonun ictimai-siyasi həyatında oynadıqları aktiv fəaliyyətlərindən danışıb.***



Bildirib ki, cəmiyyətin əsas aparıcı avanqardı olan Yeni Azərbaycan Partiyasına qəsəbə üzrə üzv olanların sayında da artım müşahidə olunub. Z.Zeynalovun sözlərinə görə, YAP-a üzv olanların əsas hissəsini gənclərin təşkil etməsi bu partiyaya olan böyük inamın, etibarın nəticəsidir. Məruzə ətrafında çıxış edən partiya üzvlərindən X.Həşimzadə, H.Şəfiyev, İ. İsgəndərov və M.Qarayeva keçən müddət ərzində görülən işlərdən danışıb, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin apardığı daxili və xarici siyasəti, birmənalı şəkildə dəstəklədiklərini bildiriblər. Çıxış edənlər ilk partiya təşkilatı sədrinin məruzəsini qənaətbəxş hesab ediblər.

Çıxışlardan sonra təşkilati məsələlərə baxılıb. Sonra 5 nəfərdən ibarət idarə heyətinin tərkibi, Zaur Zeynallı isə yenidən YAP Xızı rayon təşkilatının Şurabad qəsəbə ilk partiya təşkilatının sədri, Xatirə Həşimzadə isə ilk partiya təşkilatının sədr müavini seçiliblər. Eyni zamanda, YAP Xızı rayon təşkilatının VIII konfransına 13 nəfər nümayəndə seçilib.

Hesabat - seçki yığıncagında YAP Xızı rayon təşkilatının sədri F.Haqverdiyev çıxış edərək ərazi ilk partiya təşkilatın yeni seçilən tərkibinə tövsiyələrini vermiş, onlara partiya fəaliyyətlərində uğurlar arzulamışdır.

**RƏFİQƏ**

# YAP Ağdam rayon təşkilatı Musiqi Kolleci ərazi ilk partiya təşkilatının yığıncağı keçirilib



***YAP Ağdam rayon təşkilatının X konfransına hazırlıqla əlaqədar ərazi ilk partiya təşkilatlarında hesabat-seçki yığıncaqları davam etməkdədir. Növbəti yığıncaq Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatı Musiqi Kolleci ərazi ilk partiya təşkilatında keçirilib.***

Tədbirdə çıxış edən ərazi ilk partiya təşkilatının sədri Laura Ağayeva hesabat məruzəsi ilə çıxış edərək, təşkilatın fəaliyyəti barəsində geniş məlumat verib. Sonra L.Ağayeva Yeni Azərbaycan Partiyasının Azərbaycanın inkişafı və çiçəklənməsində rolundan, Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən danışıb.



Yığıncaqda Yeni Azərbaycan Partiyası Ağdam rayon Musiqi Kolleci ərazi ilk partiya təşkilatının fəaliyyəti yüksək qiymətləndirilmiş və təşkilati məsələlərə baxılarkən ərazi ilk partiya təşkilatına yenidən sədr Laura Ağayeva, müavinləri Adil Məmmədov, Ülviyyə Əliyeva, 7 nəfərdən ibarət idarə heyəti və Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatının X konfransına isə 13 nəfər nümayəndə seçilib.

**Z.BAYRAMOVA**



# İran XİN rəhbərinin müavini Azərbaycana gəlir

İranın xarici işlər nazirinin Asiya və Okeaniya ölkələri üzrə müavini, İran Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi İbrahim Rəhimpur bu həftə Azərbaycana səfər edəcək. Bu barədə SİA-ya İranın Azərbaycanakı səfirliyindən məlumat verilib. İ.Rəhimpur Xəzərin hüquqi statusu ilə bağlı Bakıda keçiriləcək işçi qrupun növbəti iclasında iştirak edəcək. Qeyd edək ki, ötən həftə xarici işlər nazirinin müavini Xələf Xələfov jurnalistlərə bildirib ki, iclasda konvensiya layihəsinin razılaşdırılmamış məsələləri üzrə iş aparılacaq.

# Dağlıq Qarabağ Azərbaycanın daxili məsələsidir

## Cümşüd Nuriyev: "Sergey Lavrov erməni kökənli olduğuna görə, Sarkisyan onu dəstəkləyib "

***Məlum olduğu kimi, işğalçı ölkə olan Ermənistanın prezidenti Serj Sarisyan keçirdiyi görüşdə Dağlıq Qarabağ münaqişəsinin həllinin nə Ermənistanın, nə də Azərbaycanın daxili işi olmadığını bəyan edib. Təbii ki, ağlı çaşmış durumda olan Sarkisyan bununla növbəti təxribatlara yol verdiyi şübhəsizdir.***




Bu, bir növ Sergey Lavrovun məlum açıqlamasından sonra bir-birinin tamamlamağa hesablanan təxribatçı bəyanat hesab olunur. Politoloq Cümşüd Nuriyev "SƏS" qəzetinə açıqlamasında bildirdi ki, bu təxribatçı bəyanat Serj Sarkisyanın Ermənistanda hökm sürən xaos və anarxiya fonunda özünü müdafiə etmək üçün səsləndirdiyi bəyanatdan başqa bir şey deyil: "Təbii ki, Sergey Lavrov da erməni kökənli olduğuna görə, Sarkisyan onu dəstəkləməlidir. Nə Lavrovun ixtiyarı var ki, bu məsələyə qarışsın, desin ki, Azərbaycanın daxili işi deyil, nə də Sarkisyan deyə bilər ki, nə Ermənistan, nə də Azərbaycan münaqişəni həll edə bilməz. O, çalışır ki, özünün gücsüzlüyünü həmin müstəvidə göstərməmək üçün desin ki, bu, bizdən asılı məsələ deyil. Guya bu, Moskvanın həll edə biləcəyi məsələdir. Amma bütün hallarda Dağlıq Qarabağ Azərbaycanın daxili məsələsidir".

Politoloqun sözlərinə görə, Ermənistan işğalçılıq siyasəti aparmaqla Azərbaycanın ərazi bütövlüyünə qəsd edib: "Azərbaycan ərazi bütövlüyünü bərpa etmək üçün BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə və beynəlxalq hüquqi-normativ sənədlərə uyğun olaraq, Dağlıq Qarabağı terrorçulardan təmizləmək üçün antiterror əməliyyatları apara bilər. Bu halda, heç bir dövlət Azərbaycanın qanuni haqqına qarşı çıxa bilməz".

"Beynəlxalq birliyin işğalçı Ermənistanın təxribatlarını, işğalçılıq siyasətini hələ də davam etdirilməsinə seyrci qalması münaqişənin həllinə ikili yanaşmanın bariz nümunəsi sayıla bilərmi" sualını cavablandıran politoloq bildirdi ki, bu günə qədər Ermənistanın işğalçılıq siyasətinə dünyanın aparıcı dövlətləri və beynəlxalq birlik göz yumub: "Bu da beynəlxalq təşkilatların ikili yanaşmalarından xəbər verir. Eyni zamanda, burada xristian həmrəyliyi deyilən bir şey var. İşğalçı dövlətlə, ərazisi işğal olunan dövləti islam dövləti olduğuna görə, eyni müstəviyə qoyulmağın özü hüquqa tüpürməkdir. Onların nə demələrindən asılı olmayaraq, bütün hallarda Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək hüququna malikdir. Ümumiyyətlə, gec-tez işğalçı ölkə olan Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını geri qaytarmağa məcbur olacaq. Çünki bu gün işğal altında olan torpaqlar Azərbaycan dövlətinə aiddir. Yəni gec-tez haqq, ədalət öz yerini tutacaqdır".

**GÜLYANƏ**

# Ermənistanın təcavüzkar siyasəti bir daha ifşa olundu

## İspaniyanın Madrid şəhərində keçirilən FİTUR Beynəlxalq Turizm Sərgisi çərçivəsində Ermənistanın ölkəmizə qarşı növbəti təxribatına layiqli cavab verilib

***Məlum olduğu kimi, 2017-ci ilin 18-22 yanvar tarixində İspaniyanın Madrid şəhərində FİTUR Beynəlxalq Turizm Sərgisi keçirildi. Sərgi çərçivəsində Ermənistan Azərbaycan torpaqlarını işğal etdiyini və bu təcavüzün hələ də davam etdiyini sübut edərək, yenidən təxribata əl atmışdır.***

Belə ki, Ermənistana aid olan təqdimat stendində Qarabağa aid olan şəkillər və materiallar yerləşdirilmişdir. Bununla bağlı həmin günlərdə BMT-nin Ümumdünya Turizm Təşkilatının və İspaniya hökumətinin təşkilatçılığı ilə keçirilən BMT-nin "İnkişaf üçün Davalı Turizm Beynəlxalq İli"nin açılış mərasimində iştirak etmək üçün Madrid şəhərində səfərdə olan mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə nümayəndə heyəti və həmçinin, Azərbaycan Respublikasının İspaniyadakı səfirliyi tərəfindən bir sıra vacib addımlar atılmışdır.




Nazir Əbülfəs Qarayev məsələ ilə bağlı BMTT-in baş katibi Taleb Rifai ilə müzakirə aparmış və Ermənistan tərəfinin bu beynəlxalq hüquqa zidd hərəkətlərinin həm təşkilatın fəaliyyətinə və həm də qəbul etdiyi qərarlarına hörmətsizliyini diqqətə çatdırmışdır. Baş katib Taleb Rifai Azərbaycan tərəfinin narahatlığını böyük həssaslıqla qəbul etdiyini və məsələ ilə bağlı aiddiyyəti tərəflərlə danışıqlar aparacağını bildirmişdir.

Bununla bağlı Azərbaycan Respublikasının İspaniyadakı səfiri Anar Məhərrəmov İspaniya Xarici İşlər Nazirliyi və FİTUR rəhbərliyi ilə görüşlər keçirərək, ölkəmizin mövqeyini qarşı tərəfə çatdıraraq Ermənistanın belə təxribatların qarşısının alınmasının zəruri olduğunu bildirmişdir. İspaniya tərəfi Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, lakin bir sıra hallarda özəl sahədə baş verənlərə dövlətin müdaxilə edə bilmədiyini qeyd etmiş, buna baxmayaraq, sərgi təşkilatçılarını məsələnin həssaslığı barədə xəbərdarlıq edəcəklərini bildirmişlər. Daha sonra sərgidə Ermənistan stendi qarşısında İspaniyada yaşayan həmvətənlərimizin etiraz aksiyası təşkil edilmiş və işğalçı Ermənistanın təcavüzkar fəaliyyətlərinə dair lövhə və bannerlər nümayiş etdirilmiş, "Qarabağ Azərbaycanındır", "işğala son", "Ermənistan işğalçıdır" şüarları səslənmiş, sərgi iştirakçılarına Azərbaycan həqiqətləri və erməni təcavüzü barədə məlumat verilmişdir.

Ermənistan tərəfinin belə beynəlxalq tədbirlərdə həyata keçirdikləri təxribatlar nəinki onların xeyrinə nəticələnir, əksinə, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində əldə edilmiş beynəlxalq nüfuz sayəsində belə təxribatların qarşısı layiqli şəkildə alınır və bu təxribatların təşkil olunduğu məkanlar düşmənin təcavüzkar siyasətini və işğalçı fəaliyyətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması baxımından bizim üçün əlavə beynəlxalq platformaya çevrilir.

**NƏZAKƏT**

# Hindistanda qatar qəzası nəticəsində ölənlərin sayı 41 nəfərə yüksəlib

Hindistanın şərqində Caqdalpur şəhərindən Bhubaneşvara gedən qatarın Orissa və Andhra-Pradeş ştatlarının sərhədində relsdən çıxması nəticəsində həlak olanların sayı 41 nəfərə yüksəlib, 68 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, Hindistan Milli Təhqiqatlar Agentliyinin əməkdaşları sabotaj versiyasını yoxlamaq üçün hadisə yerinə gəliblər.



Hazırda müstəntiqlər ötən ilin noyabr ayında Uttar-Pradeş ştatında baş verən və 149 nəfərin ölümü ilə nəticələnən oxşar qəzanın yeni materiallarını təhqiq edirlər. Bu məsələ ilə əlaqədar saxlanılan şübhəli şəxslərdən biri dəmir yoluna partlayıcı yerləşdirdiyini etiraf edib. Onun sözlərinə görə, təxribatın arxasında Pakistan kəşfiyyatı ilə əlaqəli olan nepallı kurator dayanır.

# Minimum aylıq əməkhaqqının artırılması dövlət və özəl sektor işçilərinin maaşlarının artımına gətirəcək

***Dünyada baş verən ümumi proseslər ölkədə ümumi iqtisadi vəziyyətə mənfi təsir edib. Amma yaşanan böhranlara baxmayaraq, Azərbaycan ildən-ilə inkişaf edir. Bunu iqtisadiyyatçı-ekspert Vüqar Bayramov AZƏRTAC-a müsahibəsində deyib. Ekspertin sözlərinə görə, bütün çətinliklərə rəğmən sosial xərclərdə azalmalar deyil, artımlar var.***



Ekspert qeyd edib ki, Prezident İlham Əliyev minimum aylıq əməkhaqqının artırılması haqqında Sərəncam imzalayıb. Minimum aylıq əməkhaqqının məbləği 2017-ci il yanvarın 1-dən 116 manat müəyyən edilib. Minimum aylıq əməkhaqqının artırılması dövlət və özəl sektor işçilərinin maaşlarının artımına gətirəcək. Hazırda müəyyən inflyasiya təzyiqləri mövcuddur və bunun əhalinin ən həssas qruplarına mənfi təsirinin yumşaldılması məqsədi ilə dövlət tərəfindən müəyyən tədbirlər görülür. Bu tədbirlər əhalinin maddi rifahını yaxşılaşdırmaq və sosial müdafiəsini gücləndirmək istiqamətində atılan inamlı addımlardır.

Ölkə başçısının "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Sərəncamı pensiyaların miqdarında artımlar olacağına imkan verir. Sosial xərclərin məbləğinin artması, eyni zamanda, əməkhaqqı və pensiya artımları üçün maliyyə bazası formalaşdırır. Bu Sərəncam pensiyaçıların dövlət tərəfindən diqqət və qayğı ilə əhatə olunduğunu nümayiş etdirir.

# "Qazprom" Gürcüstana öz qaydalarını diktə edir

Gürcüstan parlamentinin azlıqda qalan müxalifət fraksiyası energetika naziri Kaxa Kaladzenin Rusiyanın "Qazprom" şirkəti ilə bu günlərdə bağladığı müqaviləyə kəskin etiraz ediblər. SİA-nın Rusiya mətbuatına istinadən verdiyi məlumata görə, bindan sonra Rusiyadan Ermənistana Gürcüstan ərazisi ilə ötürülən təbii qazın tranzit haqqının ödənilməsi əvvəllər olduğu kimi, faizlə deyil pulla hesablanacaq. Müxalifən bu müqaviləni satqınçılıq adlandırıb və buna görə etiraz aksiyalarına start verəcələrini bildiriblər.

Əslində "Qazprom" Ermənistana Gürcüstan ərazisindən təbii qazın tranziti ilə bağlı hesablaşmada dəyişiklik etməyə fürsət axtarırdı. Kaladze isə Ermənistana tranzit edilən qazın Avropada ən bahalı olduğunu deyib və: Bizin başqa çıxış yolumuz qalmamışdı", - deyə əlavə edib.

Gürcüstanın Milli Birlik Hərəkatının üzvləri "milli maraqları satdığı üçün" energetika nazirinin parlamentdə hesabat verməsini tələb ediblər. İqtisadi məsələlər üzrə ekspert Qiya Xuxaşvili isə bildirib ki, Ermənistana ötürülən qazın 10 faizinin Gürcüstana verilməsi bizim üçün sərfəli idi: "Amma bu, nə vaxtsa bitməli idi. Rusiya ilə bağlanmış müqavilə köhnəlmişdi, dünya artıq fərqli yanaşmalarla işləyir. Rusiya tərəfi də dünya standartlarına uyğun müqavilə təklif etdi və bağladı. Yeni müqavilədə də "tranzit-pul" formulası keçərlidir. Məsələ burasındadır ki, Rusiyanın verəcəyi pulla 10 faizlik təbii qazı almaq mümkün olmayacaq. Tiflisin bir çıxış yolu var, tranzit haqqını qaldırmaq. Buna da Rusiya çətin ki, getsin".

SƏS

www.sesqazeti.az

facebook Ses Media Holding

24 yanvar 2017-ci il

# Meydan təfəkkürlü müxalifət məhvə məhkumdur

## Mütəllim Rəhimli: "Xarici qüvvələr öz pullarını boş yerə sərf etmək istəmirlər"



***Diqqət çəkən, həm də maraqlı məqam ondan ibarətdir ki, Azərbaycan müxalifətinin başlıca siyasi fəaliyyəti ölkəmiz və xalqımız əleyhinə beynəlxalq aləmdə mənfi imic formalaşdırmağa çalışmaqdır. Xüsusi ilə də xarici səfərləri zamanı dağıdıcı müxalif başbilənləri Azərbaycan xalqının və dövlətinin əleyhinə hədələyici bəyanatla çıxış edirlər.***

Bu günlə bağlı Çində olarkən "Milli Şura"nın sədri Cəmil Həsənli, Fransaya səfərə gedərkən Müsavatın keçmiş başqanı İsa Qəmbər dövlətimizin əleyhinə şər və böhtan xarakterli ittihamlar səsləndirmişlər. Bu halda sual yaranır: nəyə görə dağıdıcı müxalifətin təmsilçiləri xaricə çıxan kimi Azərbaycan əleyhinə çevrilirlər? "Ədalət" partiyasının aparat rəhbəri Mütəllim Rəhimli "SƏS" qəzetinə açıqlamasında bunun siyasi baxışları və hərəkətləri kifayət qədər köhnəlmiş şəxslərin taktikası olduğunu bildirdi: "Müxalifət düşərgəsini təmsil edən şəxslər bu cür fikirlərşirlər və həm də çox səhv olaraq düşünürlər ki, əgər ölkədə nə isə bir problem varsa, onu beynəlxalq aləmə çıxarmaqla öz şəxsi mənafeləri üçün istifadə etməyə çalışırlar. Amma birmənalı şəkildə həmin şəxslər bilməlidirlər ki, əgər ölkəmdə nə isə bir problem varsa və həmin problemin xaricə çıxarılması, bilavasitə dövlətin milli maraqlarına zərər vurur. Ümumiyyətlə, müxalifət düşərgəsini təmsil edən şəxslər bilməlidirlər ki, hansısa xarici ölkədə Azərbaycana qarşı qısqanclıq mövqeyində dayanan və bizi istəməyən xarici qüvvələrin yanında dövlətimizə zidd olan fikirlər səsləndirmək onlara başucalığı gətirməz". M.Rəhimlinin fikrincə müxalifət təmsilçiləri öz vətənləri, ölkələri haqqında bu cür xoşagəlməz fikirlər səsləndirməməldirlər.

"Demək olarmı ki, müxalifət liderlərinin xaricə getməsinin başlıca səbəbi hansısa xarici qüvvələrdən maliyyə yardımı almaqdır" sualına cavab olaraq, M.Rəhimli bildirdi ki, əgər bir müddət əvvəl xaricdə olan bəzi qüvvələr tərəfindən müxalifət düşərgəsini təmsil edən bu şəxslərə maliyyə yardımları edirdilərsə, artıq onların maliyyələşdirilməsinə ehtiyac qalmayıb: "Həmin xarici qüvvələrin özləri də, çox yaxşı bilirlər ki, bu cür şəxslərin daxildə ictimai və siyasi proseslərə təsir etmək mexanizmləri və imkanları yoxdur. Ona görə də, həmin xarici qüvvələr öz pullarını boş yerə sərf etmək istəmirlər".

**GÜLYANƏ**

# "Azadlıq" necə ajiotaj yaratmaq istəyir?

***"Azadlıq.info"da materialların qeyri-obyektiv, qərəzli, heç bir real fakta əsaslanmadan dərc olunması faktıdır. Daha çox təxribatçı, ajiotaj yaratmağa meyilli yazıların manşetlərə çıxarılması dağıdıcı müxalifətin mətbu orqanı olan "Azadlığ"ın yeni halı deyil.***

Uzun illər "Azadlıq" qəzetində, indi də "Azadlıq.info"da Azərbaycan dövlətçiliyinin əleyhinə materiallar dərc olunur, qərəzli müsahibələr, saxta sorğular yerləşdirilir. Fakta keçək! "Azadlıq.info"da Azərbaycanda siqaretin nağd satışı dayandırıldı - "Qiymətlər qalxdı" başlıqlı yazı dərc olunub. Məsələ bundadır ki, "qiymətlər qalxdı" başlığı ilə insanların diqqətini cəlb etməyə ümid edən "azadlıq"çılar bəs nə üçün materialın içində bununla bağlı bircə cümlə belə yazmayıblar? Ümumiyyətlə, olmayan bir şeyi manşetə çıxarıb insanlarda çaşqınlıq, süni ajiotaj yaratmaq nəyinizə lazımdır? Eləcə də, yazıda qeyd olunur ki, guya marketlərdə siqaret satışı dayandırılıb, sahibkarlar və vətəndaşlar heç bir yerdən siqaret ala bilmirlər. Yalandır! Bu xəbərin nə dərəcədə doğru olduğunu yoxlamaq mənim üçün elə də çətin olmadı. Məhlədə, yol qırağında yerləşən böyük və kiçik marketlərə daxil oldum, siqaret aldım, heç bir çaxnaşma da yox idi.




Eyni zamanda, "Azadlıq.info"da 17 yanvarda yerləşdirilən "SOCAR"-dan bahalaşma anonsu" başlıqlı yazının sosial şəbəkələrdə "Azadlıq" səhifəsində paylaşımında deyilir: "Xalq şokdadır! Bu dəfə qaz yenə də qalxır, insanlar üsyana hazırlaşırlar..." Gülünc və absurd! Biabırçı hal odur ki, bu paylaşımı Əli Kərimli, Gültəkin Hacıbəyli və Cəmil Həsənli öz səhifələrində yerləşdirərək, geniş "şərh" də veriblər. Bu cür ucuz, şit şoular nəyinizə lazımdır axı!? Xalq seçkilərdə dəstəklədiyi, sevdiyi, seçdiyi partiyaya səs verib və hər kəs də öz işinin-gücünün başındadır. 10 il bundan öncə hansısa rayonda baş vermiş 20 nəfərlik bir etiraz aksiyasının videogörüntülərinə effekt verib, tarixini dəyişərək, bunu bu gün rayonlarda baş verən "üsyan" kimi xalqa sırımağın nə adı var? "Azadlıq.info"nun yazdığına, müxalifətçi "iqtisadçı"ların, "ekspert"lərin fikirlərinə əsaslansaq, onda dollar 2016-ci ilin oktyabr ayında 4 manat olmalı idi. Hər gün həyəcanlı proqnozlar verilir. Bu gün də yazıblar: "Millət! Hazırlaşın! Dollar 4 manat olacaq...". Nə dəxli var axı!? Təkcə bu faktın özü göstərir ki, onların proqnozları da sabun köpüyü kimi bir şeydir, üfləyəndə özünü itirir. Ancaq bununla belə yenə də populist fikirləri və yersiz, əsassız "proqnozları" ilə süni ajiotaj yaratmağa cəhd edirlər.

**SAMİR**

# Aleksandr Hovakimyan: "Metsamor AES bütün region üçün böyük təhlükə mənbəyidir"



***Ermənistanda fəaliyyət göstərən Metsamor Atom Elektrik Stansiyasında (AES) qəza baş verib. Metsamor AES-in mütəxəssisi Aleksandr Hovakimyan Ermənistan hakimiyyətinin stansiyanın istismarını dayandırmayacağı təqdirdə malik olduğu bütün məlumatları dünya ictimaiyyətinə açıqlayacağını deyib. Ermənistan baş nazirinin müşaviri Şuşan Sardaryan bildirib ki, atom elektrik stansiyasının enerji təchizatı yüksək gərginlikli elektrik ötürücü xəttində baş vermiş qəza nəticəsində dayandırılıb.***

Region üçün təhlükə mənbəyi olan AES-in istismar müddəti bitsə də, Ermənistan onun fəaliyyətini dayandırmır. Stansiyanın mütəxəssisi Aleksandr Hovakimyan Metsamorun seysmik zonada yerləşdiyini, nəinki Ermənistan, bütün region üçün böyük təhlükə mənbəyi olduğunu deyib. Bildirib ki, stansiya hökumətə enerji yox, başqa məqsədlər üçün lazımdır. A.Hovakimyan Ermənistanın Müdafiə Nazirliyinin əks kəşfiyyat şöbəsində işləyərkən AES barədə ictimaiyyətdən gizli saxlanılan bir çox məlumatlara sahib olduğunu deyib. O vurğulayıb ki, iki blokdan ibarət Metsamor AES-in fəaliyyəti dərhal dayandırılmalıdır. 1993-cü ildə yenidən işə salınan stansiyanın istismar müddəti tam başa çatıb. 2009-cu ildə yeni AES-in tikintisi üçün qərar qəbul edilsə də, Ermənistanda maliyyə çatışmazlığı səbəbindən bu layihə reallaşmayıb.



# Əlcək və "reket" jurnalistlər

**SAMİR**

***2008-ci ilin dekabr ayı idi... Düşmənlə üzbəüz dayanmışdıq, yanlışlığa yol verib əllərimizi qızdırmaq üçün əlcəklərimizi çıxarıb yandırdıq. Ocağın işığını görən ermənilər 265 metrlik məsafədən atəş açmışdılar, əsgər yoldaşımız düşmən gülləsinə tuş gəlmişdi. O zaman bizi ermənilərlə cəmi 30 metrlik neytral zona ayırırdı.***

İri çaplı silahlarla onların postlarını ("dod"larını) dağıtdıq, pərən-pərən düşdü alçaqlar. Ancaq hər şey bununla bitmədi, gecəyarısı əsgər yoldaşım mənə yaxınlaşdı, posta çıxacağını dedi və əllərinin üşüdüyünü, ona əlcək tapıb verməyimi xahiş etdi. Verdim! Üstündən 30 dəqiqə keçəndən sonra (cəmi 8 saatlıq sükutdan sonra) atəş səsləri eşidildi, səngərə töküldük. Cılız, çəlimsiz cəbhə yoldaşımız 6 erməninin anasını ağlatmışdı. Kişi kimi şəhid oldu! O əlcəklər indi də məndədir. Barıt qoxusu çəkilməmiş, kirdən rəngini dəyişmiş qara rəngli (əslində, boz rəngli) əlcəklərim. Kəsəsi, əlcəklə bağlı daha dəhşətli xeyli xatirələrim var. Ondan sonra bir daha əlcək geyinmədim, əllərim çat vermişdi, iki dırnağım düşmüşdü. Bu gün də mülki həyatda əlcəkdən qaçıram. Mən əlcəyi qoxlayıb, qucaqlayıb ağlamağı sevirəm. Sözümü nəyə gətirirəm, ondan danışım. Bəlkə də dəxli yoxdur, amma yenə də yuxarıda yazdıqlarımı xatırlamaq istədim. Çünki əlcək görsəm, ya da bu sözü eşitsəm, dərhal o günləri xatırlamalı oluram.

Yeni xəbərdir... Deməli, bizim "reket" "jurnalist"lərimiz yeni metod tapıblar. Cinayətkar, insanları yolunu azmış qadınlarla şantaj edən Surxay Əliyev və Habil Vəliyevin sağ əli vardı- "Kriminal-107" qəzetinin baş redaktoru Maarif Abasov! Sən demə, bu adam həm də əlcək biznesinə girişibmiş, tikinti sahələrinə əlcək satırmış. Çirkli əllərini əlcəklərlə "təmiz"ləməyə çalışan bu "jurnalist" bir müddət öncə Cərrahiyyə-Təkmilləşdirmə İnstitutunun Sabunçu rayon filialının həkimi Orxan Abasovu ailəsi ilə şantaj edərək, külli miqdarda pul tələb etmişdi. Heç kimə qəribə gəlməsin, mən dəqiq bilirəm ki, Surxayın, Habilin, Maarifin hərəkətləri nəticəsində bir neçə şəxs şantaja dözə bilməyərək intihar edib. Bu adamların hədə-qorxuları, şantajları nəticəsində bir məmurun 15 yaşlı qızı özünü asıb öldürmüşdü. Bu əclaflara görə ailələr dağılıb. Bu şərəfsizlər rayonlardan qızları gətirib əxlaqsızlığa sövq edirdilər, onları "masaj salonları"na satırdılar. Bu satqınlar fahişəxanalardan qazandıqları pullarla qardaşlarının, qohumlarının adına obyektlər açmışdılar. Hər həftə xaricdən 80-100 min ədəd əlcək gətirən bu alçaqlar bir müddət sonra iş gördükləri tikinti sahiblərini də şantaj edirlərmiş. Oturub yedizdirib-içizdirib bir "qadın"ı "jurnalist" adı altında qucaqlarına verib videosunu çəkirlərmiş. Bu "vətənsiz" "reket"lərin hələ bir sürüsü azadlıqdadır, aylıq "tas"larını yığmaqla məşğuldurlar. Bir nəfəri tapıb öncə Surxay 100 min alırdı, daha sonra həmin şəxsin mobil nömrəsini, onun haqqında olan "materialı" Habilə ötürürdü, o da 100 min qoparırdı, sonra növbə başqalarına çatırdı, onlar da həmin adamı ət kimi parçalayırdılar və beləcə ailələrinə "çörək pulu" aparırdılar.

Bu da yeni xəbərdir. Hazırda içəridə yox, çöldə olan "reket"lər "siyasi mühacir" alverindən yaxşı pul tuturlar. Planı da mərhələli şəkildə reallaşdırırlar. Deməli, ilk olaraq xaricə getmək istəyən bir nəfərin adından yazı yazıb məmuru şantaj edirlər, məmur da materialın şantaj xatakterli, cəfəngiyyat olduğunu sübut etmək üçün məhkəməyə üz tutub təkzib verməsini tələb edəndə, bunlar hay-həşir salırlar ki, guya hüquq-mühafizə orqanları təzyiq göstərir. Dərhal "lazımı" sənədləri toplayıb həmin şəxsin məsələsini 15 min manat müqabilində həll edirlər. Bunlar heç adam da deyillər, bu dövlətin və millətin düşmənləridirlər.

# Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında

## *Azərbaycan Respublikasının 28 dekabr 2001-ci il tarixli Konstitusiya qanunu (2008-ci il fevralın 1-dək olan əlavə və dəyişikliklər)*

***- Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili vəzifəsi (bundan sonra "müvəkkil" adlandırılacaq) Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi üçün təsis edilir.***

Müvəkkilin fəaliyyəti insan hüquqlarının müdafiəsini pozulmuş insan hüquq və azadlıqlarının bərpasını təmin edən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmır və əvəz etmir.

Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının və Azərbaycan Respublikası hakimlərinin fəaliyyətinin yoxlanılması müvəkkilin səlahiyyətlərinə aid deyil.

Müvəkkil əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi məsələlərinin həlli ilə bağlı Azərbaycan Respublikası Prezidentinə təkliflər verə bilər.

Müvəkkil Azərbaycan Respublikasının Milli Məclisinə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına dair təkliflər verə bilər. Müvəkkil Azərbaycan Respublikasının Milli Məclisinə amnistiya elan edilməsi barədə təklif verə bilər.

Müvəkkilin məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, habelə, məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxmaq hüququ vardır.

Müvəkkilin fəaliyyəti aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət və qərəzsizlik prinsipləri əsasında qurulur.

Müvəkkili Azərbaycan Respublikası Prezidentinin təqdim etdiyi üç namizəd arasından Azərbaycan Respublikasının Milli Məclisi 83 səs çoxluğu ilə seçir.

Azərbaycan Respublikasının Milli Məclisi müvəkkilin seçilməsi ilə bağlı qərarı qəbul etmədikdə, Azərbaycan Respublikasının Prezidenti 15 gün müddətində digər üç şəxsin namizədliyini Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir.

Yaşı 30-dan aşağı olmayan, ali təhsilli, insan hüquqlarının müdafiəsi sahəsində təcrübəyə və yüksək əxlaqi keyfiyyətlərə malik olan Azərbaycan Respublikasının vətəndaşı müvəkkil vəzifəsinə seçilə bilər.

İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, qanunvericilik, icra və məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır və xüsusilə, ağır cinayətlərə görə məhkum olunmuş şəxs müvəkkil ola bilməz.

Müvəkkil siyasi fəaliyyətlə məşğul olan və heç bir siyasi partiyanın üzvü ola bilməz. Müvəkkil hər hansı qeyri-hökumət təşkilatının rəhbərliyində təmsil oluna bilməz.

Müvəkkil vəzifəsinə seçildiyi gündən 5 gün müddətində onun statusuna uyğun olmayan fəaliyyəti dayandırmalıdır.

Müvəkkil vəzifəyə seçildiyi gün Azərbaycan Respublikası Milli Məclisinin iclasında and içir: "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili vəzifəsində səlahiyyətlərini şərəf və ləyaqətlə yerinə yetirəcəyimə, Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına əməl edəcəyimə, müstəqil və qərəzsiz fəaliyyət göstərəcəyinə and içirəm".

Müvəkkil 7 il müddətinə seçilir.

Eyni şəxs müvəkkil vəzifəsinə yalnız bir dəfə seçilə bilər. Müvəkkilin səlahiyyətlərinin bitməsinə 30 gün qalmış Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Milli Məclisinə yeni müvəkkilin seçilməsi üçün üç şəxsin namizədliyini təqdim edir. Azərbaycan Respublikasının Milli Məclisi 15 gün müddətində müvəkkilin seçilməsi ilə bağlı müvafiq qərar qəbul edir.

Müvəkkil müstəqildir və yalnız Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına tabe edir.

Müvəkkilin müstəqilliyinə aşağıdakı təminatlar verilir:

dəyişilməzliyi;

toxunulmazlığı;

hər hansı dövlət və ya yerli özünüidarə orqanı, vəzifəli şəxs tərəfindən onun fəaliyyətinə müdaxilə edilməsinin yolverilməzliyi;

maddi və sosial təminatlar.

Fövqəladə və ya hərbi vəziyyətin elan edilməsi müvəkkilin fəaliyyətini dayandırmır və ya məhdudlaşdırmır.

Müvəkkil səlahiyyət müddəti ərzində toxunulmazdır.

Müvəkkil səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula və saxlanıla bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Müvəkkil cinayət başında yaxalanarsa, onu tutan orqan bu barədə 24 saat müddətində Azərbaycan Respublikası baş prokuroruna və Azərbaycan Respublikasının Milli Məclisinə xəbər verməlidir.

Müvəkkilin toxunulmazlığına yalnız Azərbaycan Respublikası baş prokurorunun təqdimatına əsasən, Azərbaycan Respublikası Milli Məclisinin 83 səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə xitam verilə bilər.

Müvəkkilin toxunulmazlığı, həmçinin, onun mənzilinə, xidməti otağına, nəqliyyat və rabitə vasitələrinə, poçt-teleqraf yazışmalarına, şəxsi əmlakına və sənədlərinə də şamil edilir.

Müvəkkil işləmiş şəxs vəzifədən getdikdən sonra müvəkkil səlahiyyətlərini həyata keçirdiyi dövrdəki fəaliyyətinə və söylədiyi fikirlərə görə toxunulmazdır. Bu dövrdə törətdiyi cinayətlərə və məhkəmə qaydasında inzibati tənbeh tədbirləri nəzərdə tutulmuş hüquq pozuntularına görə həmin şəxsin məsuliyyətə cəlb edilməsi bu qanunun 6.3-cü maddəsində müəyyən olunmuş qaydada həyata keçirilir.

Müvəkkilin səlahiyyətlərinə Azərbaycan Respublikası Milli Məclisinin təşəbbüsü ilə və ya Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında Azərbaycan Respublikası Milli Məclisinin 83 səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

müvəkkilə aid tələblər pozulduqda;

müvəkkil öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə Azərbaycan Respublikası Milli Məclisinin iclasında aşağıdakı hallar elan edildikdə, Azərbaycan Respublikası Milli Məclisinin sədri öz sərəncamı ilə müvəkkilin səlahiyyətlərinə vaxtından əvvəl xitam verir:

müvəkkil vəfat etdikdə;

müvəkkil barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü olduqda;

müvəkkil vəzifəsindən könüllü yazılı istefa verdikdə;

Müvəkkilin səlahiyyətlərinə vaxtından əvvəl xitam verildikdə, Azərbaycan Respublikasının Prezidenti 30 gün müddətində Azərbaycan Respublikası Milli Məclisinə yeni müvəkkilin seçilməsi üçün üç şəxsin namizədliyini təqdim edir. Azərbaycan Respublikasının Milli Məclisi 15 gün müddətində müvəkkilin seçilməsi ilə bağlı müvafiq qərar qəbul edir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***






*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 24 yanvar


## Dost seçimi bizim genetik koddan asılıdır




Hər bir adamın dostları var, lakin onlardan bir neçəsi ailənin həqiqi üzvünə çevrilir. Alimlərin fikrincə, sözün hərfi mənasında bizim "qohumlarımız" məhz ona görə bu dərəcədə yaxındırlar ki, həqiqi dostların DNT-si kifayət qədər bir-birinə oxşardır. AZƏRTAC "svopi.ru" saytına istinadla xəbər verir ki, Kaliforniyada Ceyms Faulerin başçılığı altında mütəxəssislər tərəfindən adamlar arasında yaxın dostluğun əsas səbəbləri tədqiq olunub. Eksperiment zamanı ABŞ-ın kiçik şəhərlərindən birində yaşayan iki mindən çox adamın genetik kod məlumatlarından istifadə edilib.

Alimlər könüllülərin genlərində 500 min birhərfli markerləri tədqiq ediblər. Aşkar edilib ki, ən yaxın dostlarda DNT 0,1 faiz eynidir. Buradan belə çıxır ki, biz öz dostlarımızla 0,1 faiz eyniyik. Bu cür oxşarlıq olduqca kiçik görünə bilər. Lakin yaxın qohumların DNT oxşarlığını müqayisə etməklə görmək olar ki, onlarda da DNT 0,1 faiz oxşardır.

Ceymsin fikrincə, bu cür göstəricilərə görə adamda belə fikir yaranır ki, tədqiqata cəlb edilənlərin ulu nənə və babaları eynidir. Daha bir maraqlı fakt ondan ibarətdir ki, yaxın dostların çox vaxt eyni iydən xoşları gəlir. Onların yemək, rəng və s. seçimində də ümumi cəhətləri çoxdur.

## Gündə bir armud yemək arıqlamağa kömək edir

ABŞ-ın Luiziana Universitetinin alimləri armudun arıqlamağa kömək etdiyini sübut ediblər. AZƏRTAC "lentnews.ru" saytına istinadla xəbər verir ki, aparılan araşdırmalar zamanı arıqlamaq niyyətində olan tədqiqat iştirakçıları iki qrupa ayrılıblar. Hər iki qrup üçün eyni qida rasionu tərtib edilsə də, qruplardan birinin iştirakçılarına hər gün əlavə olaraq bir armud verilib. Üç həftə sonra qida rasionunda armud olanların çəkisinin əhəmiyyətli dərəcədə azaldığı müşahidə edilib. Alimlər arıqlamanın səbəbini onunla izah edirlər ki, armudun tərkibində fruktozanın miqdarı çox olduğu üçün bu meyvəni yeyənlər əlavə şirniyyatdan imtina ediblər.



## TƏBRİK EDİRİK!



"LNS" Şirkətinin rəhbərliyi və əməkdaşları Şahin, Vüqar, Vasif, Dəyanət, Səbirə, Elmira, Sevinc, İlduzə, Nəzakət, Səidə, Şəmayə, Fərqanə, Nazilə xanım və başqaları Azayeva Elmira xanımı ad günü münasibəti ilə təbrik edir, ona uzun ömür, xoşbəxtlik və işlərində uğurlar arzu edirlər.

***Şirkət rəhbərliyi, əməkdaşları,***
***Şəninə təriflər, alqış söyləyir.***
***Hər biri ürəkdən, Elmira xanım,***
***Sənin ad gününü təbrik eyləyir.***

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İnformatika ixtisası üzrə I kurs tələbəsi Bağırova Nuranə Eldar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## FIG-in vitse-prezidenti: Azərbaycan gimnastikası fenomenal inkişaf nümayiş etdirir



Azərbaycan gimnastikası son on ildə fenomenal inkişaf nümayiş etdirib. Azərbaycan Gimnastika Federasiyasının saytında yerləşdirilən məlumatda deyilir ki, bu sözləri Beynəlxalq Gimnastika Federasiyasının (FIG) vitse-prezidenti Slava Korn söyləyib. Onun sözlərinə görə, Azərbaycanda keçirilən çoxsaylı yarışlar ölkəni iri idman dövlətinə çevirib.

S.Korn deyib: "Mən 2007-ci ildə Azərbaycana ilk səfərimi xatırlayıram. Onda Bakıda dünya çempionatı keçirilirdi və siz beynəlxalq səviyyəyə yenicə çıxırdınız. Azərbaycanda gimnastika ötən on ildə fenomenal inkişaf nümayiş etdirib. Mən təkcə bədii gimnastikanın deyil, digər gimnastika növlərinin inkişafında da Federasiyanın rolunu və onun bu işə böyük töhfəsini qeyd etmək istəyirəm. Bakıda keçirilən bütün Dünya Kuboku yarışları və əlbəttə, Avropa Oyunları Azərbaycanı böyük idman ölkəsinə çevirib". Bakıda FIG hakimləri üçün Qitələrarası kursların təşkilatçılıq səviyyəsini yüksək qiymətləndirən S.Korn deyib: "Mən hakimlər üçün üç Qitələrarası kursda iştirak etmişəm və deməliyəm ki, Bakıdakı kurslar ən yüksək səviyyədə təşkil edilmişdi. Otel şəraiti, hakimlərin şəhər daxilində yerdəyişməsinin təşkili - hamısı ən yüksək səviyyədə idi. Mən gördükləri bu böyük işə görə təşkilatçılara təşəkkür edirəm".

FIG hakimləri üçün bədii gimnastika üzrə Qitələrarası kurslar yanvarın 17-dən 21-dək Bakıda keçirilib. Olimpiya siklində bir dəfə keçirilən bu kurslar hakimlərə bu kateqoriya üzrə ən yüksək sayılan birinci dərəcəni almaq imkanı verir.

## "Mançester Siti" Serxio Aquero ilə müqavilə müddətini uzadıb




"Mançester Siti" futbol klubunun baş məşqçisi Xosep Qvardiola hücumçu Serxio Aqueronu satacaqları ilə bağlı xəbərləri təkzib edib. AZƏRTAC xəbər verir ki, o, argentinalı futbolçu ilə müqavilənin müddətini uzatdıqlarını, lakin bunun rəsmi şəkildə açıqlanmadığını söyləyib. Ehtimal edilir ki, müqavilənin müddəti ötən il artırılıb. Qeyd edək ki, cari mövsüm 15 oyuna 11 qol vuran 28 yaşlı oyunçunun "Real"a keçəcəyi barədə məlumatlar yayılmışdı.

## "Fənərbağça" "Başakşəhər"in 26 oyunluq məğlubedilməzlik seriyasına son qoyulub



Futbol üzrə Türkiyə Superliqasının lideri İstanbulun "Başakşəhər" komandasının çempionatda 26, rəqib meydanlarında isə 16 oyunluq məğlubedilməzlik seriyasına yanvarın 22-də son qoyulub. "Başakşəhər"in cari çempionatda ilk məğlubiyyəti (0:1) "Fənərbağça" komandası ilə oyunda qeydə alınıb. Oyunda yeganə qolu matçın 28-ci dəqiqəsində Ozan Tufan "Başakşəhər"in qapısından keçirib. Bu oyundan sonra "Fənərbağça" komandası "Başakşəhər" ilə xal fərqini 4-ə endirib. Hazırda "Başakşəhər"in 39, "Fənərbağça"nın isə 35 xalı var. Çempionatda üçüncü yerin sahibi "Qalatasaray"ın isə aktivində 36 xal var.

## "Barselona" "Eybar"ı darmadağın edib



İspaniyanın "Barselona" komandası La Liqanın 19-cu turunda səfərdə "Eybar" komandasını 4:0 hesabı ilə darmadağın edib. AZƏRTAC xəbər verir ki, oyun "Barselona"nın "qızıl üçlüyü"nün - Lionel Messi, Luis Suares və Neymarın gözəl oyunu ilə yadda qalıb. Kataloniya təmsilçisinin ilk qolunu matçın 31-ci dəqiqəsində Denis Suarez vurub. Fasilədən sonra oyunda üstünlüyü tamamilə ələ alan "Barselona"nın heyətində Lionel Messi (50), Luis Suarez (68) və Neymar (90+1) "Eybar" üzərində çoxqollu qələbəni rəsmiləşdiriblər. Bu matçda vurduğu qol Neymarın "Barça"nın heyətində 94-cü qolu olub. Bununla da o, həmyerlisi Ronaldinyonun "Barselona"dakı göstəricisini təkrarlayıb. Ronaldinyo 94 qolu 207 oyunda vurduğu halda, Neymar buna 164 oyunda nail olub. "Eybar" üzərində qələbədən sonra xallarının sayını 41-ə çatdıran "Barselona" bir oyun az keçirən "Real Madrid"dən iki, "Sevilya"dan isə bir xal geridədir. Bu tur çərçivəsində yanvarın 21-də lider "Real Madrid" "Santyaqo Bernabeu"da "Malaqa"nı (2:1), "Sevilya" isə səfərdə autsayder "Osasuna"nı (4:3) məğlub edib.


***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

***Buraxılışa məsul: Mətləb Salahov***
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**